KHAZAR-REVIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 340 May 2015

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI · AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

XƏZƏR UNİVERSİTETİ · 1991 · BAKI



## ANLAŞMA MEMORANDUMU İMZALANDI

khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218 - 2772

# "XƏZƏR"də İMTAHAN HƏYƏCANLARI...






# İÇİNDƏKİLƏR


**AMEA ilə Xəzər Universiteti arasında Anlaşma Memorandumu imzalandı . . . . . . 4**
***С. Алиева, Н. Алиев.* Оставить только самое нужное . . . . . . . . . . . . . . . . . . . . . 20**
**Akademik Ziya Bünyadovun kitabının təqdimat mərasimində . . . . . . . . . . . . . . . 26**
**Xalq rəssamı Altay Hacıyevlə görüş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 28**
**İran kinosunun ulduzları Xəzər Universitetində. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30**
**Məktəblilər universitetin qonağı oldular. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 34**
**Karyera sərgisi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37**
**Tələbələrimiz arxeoloji qazıntıda . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40**
**"Spagettidən hazırlanmış körpü" müsabiqəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44**
**Xudata səfər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48**
**Digest: " Time" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 52**
***Will Green.* "Procuring the Baku 2015 Games in 20 Months Was All About Planning". . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58**
**Bakı Xəzər Rotary klubunun kitabxanamıza hədiyyəsi . . . . . . . . . . . . . . . . . . . . . . . 60**
**Selcuk Universitetinin rektoru "Xəzər"də**
***Molla Xəzər.* " Aşağıda bal-yağ verirlər". . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 70**
***Khumar Huseynova.* Assist Students in Finding Jobs by Developing Their Employability Quality . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 71**
**"Xəzər"də futbol çempionatı sona çatdı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 76**



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:** Xəzər Universiteti

**Baş redaktor:** Hamlet İsaxanlı

**Baş redaktor müavini:** Əlirza Balayev

**Redaksiya heyəti:**
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Knyaz Aslan

**Rəssam:** Mir Rafiq Əbdülrəhimov

**Kompüter tərtibatçısı:** Nigar Aydəmirova

**Foto:** Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

**Founder:** Khazar University

**Editor-in-chief:** Hamlet Isaxanli

**Associate editors:** Alirza Balayev

**Editorial member:**
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Knyaz Aslan

**Design by:** Mir Rafig Abdulrahimov

**Computer graphics:** Nigar Aydemirova

**Photo:** Multimedia Centre

# AMEA İLƏ XƏZƏR UNİVERSİTETİ ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANDI




*Mayın 21-də Xəzər Universitetində AMEA prezidenti akademik Akif Əlizadə başda olmaqla AMEA Rəyasət Heyətinin, institut direktorlarının və şöbə müdirlərinin universitet kollektivi ilə görüşü keçirildi və Anlaşma Memorandumu imzalandı. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qonaqları salamladı.*

**Professor Hamlet İsaxanlının giriş sözü**

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA-nın) prezidenti hörmətli Akif müəllim!

Vitse-prezidentlər, direktorlar, şöbə müdirləri!

Hamınız xoş gəldiniz,səfa gətirdiniz!

Bu gün Xəzər Universitetinin ən xoş günlərindən biridir. Normal, yaxşı universitet birinci növbədə elm ocağı deməkdir.Yəni belə olmalıdır, doğrusu budur. Əlbəttə, ali məktəb üstəlik təhsil və mədəniyyət ocağı olmalıdır. Azərbaycan elminin mərkəzində dayanmış, onu təmsil edən AMEA-nın yüksək heyətinin bizim universitetə təşrif buyurması bizdə çox böyük məmnunluq hissi yaradır. Çox təşəkkür edirik sizə ki, gəlmisiniz.Biz belə bir proqram fikirləşmişik, deyirik ki, sizdən də icazə alaq və davam edək. Əvvəlcə Xəzər universiteti barədə qısa bir məlumat verək. Bizim prorektorlardan biri bu işi görsün. Xəzər Universiteti nədir, nədən ibarətdir və nə işlər görür - bu barədə qısaca bir təqdimat olsun. Sonra mən universitetimizin yaranması və inkişafı ilə bağlı müəyyən şərhlər verim. Sonra bütün məclis sizindir. Biz sizi dinləmək istəyəcəyik, sizin fikrinizi bilmək, təkliflərinizi eşitmək istəyirik. Biz də öz fikirlərimizi bildirəcəyik ki, sizinlə hansı sahədə və necə əməkdaşlıq edə bilərik. Amma daha çox sizi dinləmək istəyəcəyik.

Ümid edirəm ki, bu başlanğıc yaxşı bir işin ilk addımları olacaq. Mən akademiyanın böyük anlayış olduğunu bilirəm. Biz ali məktəbik. Özündə böyük tarixi olan ali məktəb deyilik. Amma, amalımız sizinlə eyni olduğu üçün bərabər çox işlər görə bilərik.

Xoş gəlmisiniz!



*Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı universitet haqqında geniş təqdimatla çıxış etdi. Qonaqlara universitetin kampusları, fakültələri və departamentləri, mərkəzləri, institutları və laboratoriyaları, bakalavriat, magistratura, doktorantura və onların əhatə etdiyi ixtisaslar, universitetdə nəşr olunan elmi və digər jurnallar, işçi heyəti, ali məktəblərin reytinqinin müəyyənləşdirlməsi sahəsində nüfuzlu təşkilatların (Webometrics, QS – Quacquarelli Symonds) reytinq cədvəlində Xəzər Universitetinin Azərbaycanın ali məktəbləri arasında həmişə birinci olması və s. haqqında ətraflı məlumat verildi.*

*Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı geniş çıxış etdi.*

**Professor Hamlet İsaxanlının çıxışı**

Əziz dostlar, Xəzər Universiteti barədə sizə qısaca məlumat verdik. Əlbəttə, bizim bütün binalarımızı, laboratoriyaları gəzsəniz, görsəniz, daha geniş və dəqiq məlumat ala bilərdiniz. Məsələn, neft mühəndisliyi üçün nəzərdə tutulmuş laboratoriyamız var, yerli və xarici mütəxəssislər tərəfindən xüsusi dizayn olunmuş, tədqiqat aparmaq üçün nəzərdə tutulmuşdur, digər bir çox laboratoriyalarımız kimi, bu da bizim yeni - Binəqədi kampusumuzda yer almışdır.

Mən dinlədiyiniz və gördüyünüz təqdimata bir neçə söz, fikir əlavə etmək istəyirəm. Xəzər Unversitetini yaratmaqda əsas məqsəd nə idi? Azərbaycanda çox ali məktəblər var idi, daha birini yaratmaq fikri hardan gəldi? Bunun bir neçə səbəbi vardı. Səbəblərdən biri - mən, səbəbkar… O vaxtlar mən Kanada və Avropaya gedib gəlirdim, universitetlərdə tədqiqat aparır, mühazirə oxuyur, konfranslarda iştirak edirdim. İstəyirdim ki, Azərbaycanda "tapşırıq"la işləməyən bir ali məktəb yaransın.Yəni, universitetə gələn tələbənin oxumaq, çalışmaq yolu ilə irəliləməkdən başqa yolu olmasın, xahişlər, tapşırıqlar keçməsin. İkinci səbəb: istəyirdim dünyanın, xüsusilə Avropanın, Amerikanın aparıcı universitetlərində nəyi öyrədirlərsə, hansı proqramları tətbiq edirlərsə, hansı kitabları oxuyurlarsa, biz də onları edə bilək. Üçüncü səbəb: istəyirdim ki, ingilis dilini tədris dili olaraq qəbul edək. Bu həm, dediyim kimi, tələbələrin yaxşı kitablar, məsələn, Oxfordun çap elədiyi kitabları oxuya bilməsinə imkan yaradır, həm də tələbələri xaricə göndərməyə, xaricdən tələbələrin gəlməsinə, xarici mütəxəssislərin işə cəlb olunmasına kömək edir. Nəticədə bu salonda əyləşən, səfərdə və ya dərsdə olduqları üçün burda olmayan xarici alimləri - amerikalı, avropalı, hindistanlı, iranlı, türkiyəli, çinli və sair mütəxəssislər burda işləyir, "Xəzər"də ingilis dilinin işlənməsinə görə rahatca bizim tələbələrə dərs deyə bilir, gənclərimizi yetişdirməkdə bizə kömək edirlər.

Bunlarla səsləşən daha bir səbəbi - bu unversitetin beynəlxalq aləmə böyük çıxışının olmasını təmin etmək idi, yəni universitetimiz əyalət ali məktəbi olmasın, dünyanın

nəbzini hiss etsin.

Ali məktəb təkcə elmi yaymaqla məşğul olmamalıdır, həm də elmi istehsal etməlidir! Xəzər Universitetinin yaranmasında qarşıya qoyulan ən mühüm məsələlərdən biri, strateji baxımdan birincisi bu idi. Biz buna çalışırıq və müəyyən uğurlar əldə etmişik. Təqdimatda qısaca bu barədə deyildi. Başqa bir məqsədimiz: universitet elm ocağı olmaqla yanaşı, həm də mədəniyyət ocağı olmalıdır. Çünki gənc insanlar bura gəlir 4,5, 6 il, bəzən daha çox - həyatlarının ən parlaq hissəsini burada keçirirlər, burada yaşayırlar deyə bilərik. Gərək bu vaxtı darıxdırıcı keçirməsinlər, ancaq dərsə, kitabxanaya getməklə yaşamaq olmur. Bütöv bir şəxsiyyət kimi formalaşmaları üçün ruhu da qidalandırmaq lazımdır. Məlumdur ki, təhsil qanununa görə Azərbaycan tarixi və Azərbaycan dili hər kəs üçün məcburidir. Biz bu siyahını genişləndirib, daha iki fənn əlavə etdik ona: biri Azərbaycan ədəbiyyatı, digəri Azərbaycan mədəniyyəti. Biz düşündük ki, Azərbaycan ədəbiyyatı Azərbaycan mədəniyyətində mühüm yer tutur. Fikrimiz, sadəcə, Azərbaycan ədəbiyyatı klassiklərini və bəzi müasirləri oxutdurmaqdır, çünki məktəbdən gələn tələbələrimizin böyük əksəriyyəti, məlum olur ki, bunları oxumayıblar. Azərbaycan dili tədrisində isə biz yazı üzərində durduq. Tələbələrimizin (orta məktəb məzunlarımızın) yenə böyük əksəriyyəti savadlı yazmaqda çətinlik çəkir, biz akademik yazı, esse yazı, dəftərxana yazısı və sair yazıları öyrədirik. Azərbaycan mədəniyyəti adı altında isə 10-a qədər fənn təklif edirik, tələbə hansını istəsə, onu seçə bilir; məsələn, milli və dünya xalqları rəqsləri, muğam, vokal, xor, klassik musiqi, zərgərlik, xalçaçılıq, rəssamlıq və sair.

Daha bir fikrə düşdük, düşündük ki, öz orta məktəbimiz olsun. Bu məktəbi qurmaq üçün bizim məktəb mütəxəssislərimizi dünyanın müxtəlif yerlərinə göndərdik.

Amerikaya, Kanadaya, İsveçə, İngiltərəyə və sair. Məktəbi hansı ideya üzərində qurmaq? Bunun çox sadə fəlsəfəsi var. Məktəbə gələn uşaqlar bizim öz uşaqlarımızdır, yəni, birincisi, biz onları sevəcəyik, ikincisi, biz çox tələbkar olacağıq. Və nəticədə, çox gözəl bir məktəb - "Dünya" məktəbini yaratmağa nail olduq - öz uşaq bağçası, ibtidai və orta məktəb hissələri ilə. 2011- ci ildə məktəbimiz beynəlxalq IB statusu aldı. Azərbaycanda ilk elə məktəb - TISA deyilən məktəb olubdur, onu xaricilər öz uşaqlarının oxuması üçün açmışdılar. Bizim "Dünya" ilk milli məktəb oldu ki, dünyada ən keyfiyyətli və populyar məktəblər şəbəkəsinin - IB sisteminin üzvü oldu. IB-də son iki sinfi ingiliscə və IB proqramı üzrə oxuyurlar, dünyanın çox universitetləri IB məzunlarına üstünlük



verir, imtahansız qəbul edirlər.

Mən elmi fəaliyyətimiz, elmə münasibətimiz haqqında bir neçə söz deyərdim."Xəzər"i yaradanda biz iddialı bir söz dedik - elmi araşdırma istiqamətli universitet qurmaq istəyirik. Onun üçün biz nələr elədik? Birincisi, ingilis dilini bilən, beynəlxaq jurnallarda məqalələri çap olunan tədqiqatçıları işə cəlb etməyə başladıq. İkincisi, xaricdən alimlər dəvət etdik, səbəblərdən biri burda bəzi sahələrdə yaxşı bilən mütəxəssis, təəssüf ki, tapa bilməməyimizdir. Xüsusən texnologiya və mühəndislik sahələrində. Bizim mühəndislik fakültəmizdə tam ştatda olanların təqribən yarısı əcnəbilərdir. Üçüncüsü, konfranslar təşkilidir, sizi əmin edə bilərəm ki, Azərbaycanda Xəzər Universiteti kimi beynəlxalq konfranslar və seminarlar təşkil edən təşkilatlar varsa da, çox azdır. Elə olur ki, mən eyni gündə müxtəlif konfranları açmaq üçün burdan ora - ordan bura qaçıram.

Nəhayət, elmi jurnallarımız haqqında demək istəyirəm. İlkin adı "Journal of Azerbaijani Studies" olan jurnalımız gücləndikdə, ona müxtəlif ölkə və bölgələrdə maraq artdıqda adını dəyişdik –"Khazar Journal of Humanities and Sosial Sciences". Bu jurnal iki həftə əvvəl Thomson Reuters və ya New Web of Science siyahısına daxil oldu. Bu, humanitar və sosial elmlər sahələrində o mötəbər siyahıya daxil olan ilk Azərbaycan jurnalıdır. Jurnalın redaksiya heyəti çox tanınmış alimlərdən ibarətdir - bir ucu Amerika, o biri ucu Yaponiyadan. Bu jurnal tam ingiliscədir, ildə dörd dəfə nəşr olunur. Təəssüf ki, bu jurnalda Azərbaycan alimlərinin məqalələri çox az dərc olunur. Bu jurnalın humanitar və sosial elmlərin inkişafına müəyyən töhfə verəcəyinə ümid edirik. İşimizi qeyri-adi dərəcədə ciddi qurmuşuq.Yeni daxil olan məqalələrdə əvvəlcə xüsusi proqramlar vasitəsilə plagiatın olub - olmadığı yoxlanılır, plagiat varsa məqalə geri göndərilir və o müəlliflə əlaqə kəsilir. Məqalələri iki anonim rəyə göndəririk. Rəylərdən asılı olaraq qərar qəbul edilir - yaxşıdır və ya üzərində işləmək lazımdır və ya zəifdir. Zəif məqalə geri göndərilir, düzəlişlər lazım gələnləri müəllifə göndərir və cavabdan sonra ona yenidən baxırıq. Məqaləni tam hazır sayanda onu ingilis dil daşıyıcısı olan dil redaktorlarımıza göndəririk. Jurnalımıza ən çox məqalə göndərən ölkələrdən biri İrandır, iranlı müəlliflər bizim ölkə müəlliflərindən xeyli çox və fəaldırlar."Azərbaycan Arxeologiyası" adlı jurnalımız da mütəxəssislər tərəfindən yaxşı qiymətləndirilir. Bizim bir riyaziyyat jurnalımız da vardı - "Khazar Journal of Mathematics". İndi onun əvəzinə daha geniş əhatəli və sanballı bir jurnalımız hazırlanır - "Khazar Journal of Science and Technology", yəni, Təbiət Elmləri və Texnologiya Jurnalı. İngiliscə bu iki jurnalımız bir yerdə elmin bütün sahələri - təbiət elmləri və mühəndislik, humanitar elmlər və sosial elmlər üzrə məqalələr çap edə biləcək. Mühüm şərtlərdən biri redaksiya heyətinin yüksək səviyyəli alimlərdən ibarət olmasıdır. "Khazar Journal of Science and Technology" üçün mən belə bir şey fikirləşdim - 2014 - cü ildə Thomson Reuters`in dünyanın ən fəal çalışan və əsərlərinə çox istinadlar edilən bir siyahısı var. Məhz həmin siyahıdan 17 ən məşhur alimi redaksiya heyətinə daxil edə bildik.

Elmi inkişaf etdirmək üçün daha bir səyimiz doktoranturanı inkişaf etdirməklə bağlıdır. Mən sizə deyim, təhsil sistemimizdə islahatlar və yeni ideyalı yeni ali məktəbin yaradılması haqqında təşəbbüs mənim olsa da, özümə də təəccüblü gəldi ki, bu təşəbbüs o vaxt dəstəkləndi, bilirsiniz, qarışıq vaxtlar idi, 1990-cı ilin payızı və 1991-ci ilin ilk aylarından söhbət gedir. Mənim baş nazirlə müzakirə zamanı ilk fikrim belə idi - bakalavr olmasın, ancaq maqistratura və doktorantura olsun. O vaxt baş nazir mənə dedi ki, heç kim səni başa düşməz və iş alınmaya bilər. Biz bakalavr proqramları ilə başladıq. Sonra maqistratura və nəhayət, doktorantura gəldi. Hal-hazırda ən çox fikir verdiyimiz işlərdən biri doktoranturadır. Artıq yüzü keçdi doktorantlarımızın sayı; nəinki bütün özəl universitetlərdən, hətta bəzi böyük dövlət universitetlərini çıxmaqla əksər ali məktəblərdən daha geniş fəaliyyətdəyik. Əlbəttə, problemlərimiz də var doktoranturada.

Belə bir şərt qoymuşuq ki, dissertasiyanın müdafiəyə buraxılması üçün müəllifin heç olmazsa bir məqaləsinin Thomson Reuters jurnallarında dərc olunması və ya çap üçün qəbul edilməsi zəruridir. Bunun üçün yaxşı elmi rəhbər olmalıdır, fəal elmi rəhbərin fəal tələbəsi ola bilər. Təəssüf ki, biz bütün sahələrdə bu işləri görə bilmirik və əcnəbilərə müraciət edirik, qoy bir rəhbər burdan, biri də xaricdən olsun. Bu da sadə iş deyil...Və mən düşünürəm ki, rəhbər axtarılmasında Milli Elmlər Akademiyası ilə əməkdaşlıq müəyyən dərəcədə kömək edə bilər. Elə dəvət etdiyimiz müəllimlərin arasında da

AMEA-da çalışanlar üstünlük təşkil edirlər.

Daha bir elmi fəaliyyətimiz laboratoriyaların qurulması ilə bağlıdır. Mühəndislik və tətbiqi elmlərin inkişafı üçün yaxşı laboratoriyalar lazımdır. Biz hətta bir modern laboratoriya nədən ibarətdir, onu necə qurmaq lazımdır kimi suallara cavabı da asanlıqla tapmırıq. Nəticədə biz, gərək ki, 13 laboratoriya qurmuşuq. O laboratoriyaların bəziləri sonra bir neçə laboratoriyaya çevriləcək, məsələn, neft mühəndisliyi bir neçə laboratoriyaya bölünəcək, biologiya bir neçə ayrı laboratoriyaya bölünəcək.

Laboratoriyanı quranda bu sahə vacibdir fikri ilə yanaşı, yaxşı bir alimimiz, mütəxəssisimiz varsa, onu, onun qrupunu nəzərdə tutaraq laboratoriya qurmağın vacibliyini düşünürük; yoxsa, uyğun mütəxəssisimiz olmadan abstrakt bir laboratoriya qurası deyilik. Məsələn, İradə xanım - bizim biologiya departamentinin müdiri Yeni Zelandiyada işləyirdi, yaxşı məqalələr yazır, təcrübələr aparırdı. Biz onu dəvət etdik və hal- hazırda onun istəyinə uyğun laboratoriya qurmaqdayıq.

Gördüyümüz işlərdən biri də sənaye və iş dünyası ilə işlək əlaqə yaratmaqdır. Bu ağır işdir. Hazırda ciddi bir texnopark fəaliyyətindəyik.Türkiyədən mütəxəssislər dəvət etdik, digər ölkələrdə çalışanlarla məsləhətləşdik, müxtəlif təcrübələri öyrəndik. Bir sıra işlər görə bilmişik. Shlumberger bizə neftin kəşfiyyatı, qazma və istehsal üzrə proseslərin stimulyasiyası və modelləşdirilməsinə aid çox mühüm və bahalı (neçə yüz min dollar...) software - proqram təminatı verib. Bununla bağlı digər işləri özümüz etməliyik, kompüter şəbəkəsi, lisenziya almaq, mütəxəssislərimizi təlimlərə göndərmək və sair.

Xəzər Universiteti Təhsil Siyasəti İnstitutu və Təlim Mərkəzi qurmuşuq ki, orada hökumətin və şirkətlərin sifarişlərini yerinə yetiririk. Məsələn, Təhsil Nazirliyinin, Dünya Bankının və UNISEF-in sifarişlərinə görə fəal məktəb müəllimlərindən seçib məktəb direktorları yetişdirmək proqramını həyata keçiririk və ya müxtəlif bölgələrdə müxtəlif fənlər üzrə orta məktəb müəllimlərinə təlim keçirik. Bu cür işlər üçün biz xaricdən nüfuzlu mütəxəssislər dəvət edirik, metodologiya və proqram üzərində işləyirik. Bu günlərdə "Dərsliklərin hazırlanması və qiymətləndirilməsi" üzrə çox mühüm layihəni də tender nəticəsində biz qazandıq. Belə işlər həm xidmətdir, həm yeni ideyaların və əməkdaşlarımızın inkişafıdır, həm nüfuz göstəricisi, həm də müəyyən gəlirdir.

Mən yenə də sizə öz dərin təşəkkürümü bildirirəm, siz heç bir tərəddüd etmədən mənim təklifimi qəbul edib, bu çox möhtərəm heyətlə gəldiniz. Artıq işarə etdiyimiz əməkdaşlıq sahələrinə sizinlə birgə elmi konfranslar və seminarların təşkilini, qarşılıqlı məruzələrin dinlənilməsini təşkil edə bilərik. Biz ABŞ, Böyük Britaniya və digər Avropa ölkələri, Cənubi Koreya, Çin, Rusiya, Türkiyə, Gürcüstan kimi bölgələrin universitetləri ilə tez-tez birgə elmi toplantılar keçiririk, bizdə və orada... Bizim "Elm və Sənət Məclisi" adlı çox fəal və sevilən bir seminarımız var. Bu məclisə dünyanın çox müxtəlif guşələrindən yaxşı alimləri dəvət edirik, onlar mühazirə oxuyur, alimlərimiz sual verir və müzakirədə fəal iştirak edirlər. Bunun bütün xərclərini biz öhdəmizə götürürük.

Siz də yaxşı bilirsiz ki, biz, yəni Azərbaycan elm adamları beynəlxalq səviyyədə məqalə yazmaq işində axsayırıq. Sizdən üzr istəyərək bir misal gətirəcəyəm.Tehran universitetinin bir ildə yazdığı məqalələr bütün Azərbaycanın birlikdə yazdığı məqalələrdən beş dəfə çoxdur. Səbəbi heç də o deyil ki, biz çox zəifik (müəyyən zəifliyimiz var, əlbəttə). Biz Sovet sistemində yetişdik və...o sistemdən uzaqlaşdıq. O sistemdən çıxan yaxşı alimlərimiz yaşlaşdı, yaşlaşanda adam eyni dərəcədə elmi fəallıq göstərə bilmir (istisnalar bu fikri inkar etmir). İstedadlı gənclər isə elmə gəlmək istəmirlər, elmin nüfuzu sanki azalmış kimidir.Biz bir sıra şeyləri ətalət üzrə hökumətdən istəyirik. İstədiklərimizin bəzilərini alırıq, çoxunu ala bilmirik. Gərək özümüz birləşək, öz güclərimizi birləşdirək. Məsələn, məqaləyə görə alim qonorar-mükafat alır, bizdə və sizdə. Bizim alimlər güclərini birləşdirsinlər, çalışsınlar, yazsınlar, biz onlara təşkilati və maliyyə dəstəyi verək. Bu halda məqalələrin sayı da artar, keyfiyyəti də, əməkdaşlığımız da möhkəmlənər. Məsələn, biz laborotoriyalar qururuq. Akademiyanın da laboratoriyaları var, onlar, yəqin ki, bir sıra sahələrdə geniş elmi araşdırma imkanı verə bilərlər. Bu sahədə əməkdaşlıq edə bilərik.Birgə qrantlarda iştirak edə bilərik, Avropa, Türkiyə və Azərbaycan proqramlarında, həmçinin digər coğrafiyalarda.Təhsil Nazirliyinə bağlı təhsil müəssisələrindən ən çox qrant alan universitet bizik.Bizdən tələbə və müəllim sayına görə dəfələrlə böyük olan dövlət universitetlərindən çox qrant



alırıq. Bu işdə təcrübəmiz var, bu işlə məşğul olan bacarıqlı qrupumuz var. Yığışır və "kəllə döyüşü" (brain storming) ilə, yeni ideyalar üzərində düşünürük, nəticədə ortaya məzmunlu təkliflər çıxarırıq. Bu işlərdə bərabər ola bilərik. Mən çatışmayan bir cəhəti də deməliyəm. Thomson Reuters kimi təşkilatın çox zəngin elmi məlumatlar bazasına əlimiz çatmır və bu işimizi çox dərəcədə ləngidir. Düşünürəm ki, 3-4 milyonluq abunə yazılmağa hökumətimizin gücü çatmalıdır. Mən bu təşkilatla güzəştlər barədə vaxtaşırı söhbətlər aparıram, amma biz tərəfdən hərəkət yoxdur. AMEA-nın bu iş üçün maddi imkanları az ola bilər, amma hökumət bəlkə sizin sözünüzə qulaq asar...

Təşəkkür edirəm. Çox sağ olun.

*Sonra AMEA ilə Xəzər Universiteti arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalandı. Memorandumu AMEA prezidenti akademik Akif Əlizadə və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı imzaladılar.*

*Memorandumda birgə elmi tədqiqatların aparılması, tədris-metodiki ədəbiyyatın işlənib hazırlanması, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesinə tətbiqi, tanınmış alimlərin tədris prosesinə cəlb edilməsi, müasir elmi biliklərə həsr olunmuş birgə konfrans və simpoziumların keçirilməsi, gənc alim və müəllimlərin dünyanın nüfuzlu elmi mərkəzlərində staj keçməsinin təşkil edilməsi və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.*

*Memorandum imzalanandan sonra AMEA prezidenti, akademik Akif Əlizadə çıxış etdi.*



**Akademik Akif Əlizadənin çıxışı**

Salam, hamınızı xoş gördük!

Hörmətli Hamlet müəllim, bizi bura dəvət etdiyinizə görə çox təşəkkür edirəm. Əziz dostlar, sizə böyük uğurlar arzu edirəm. Güman edirəm ki, bu gün Akademiyanın tarixində yeni bir səhifə açılır və o da Xəzər Universiteti ilə birgə bizim elmimizin arzusu olan elmlə təhsilin vəhdətini gücləndirmək və dərinləşdirmək uğrunda yeni mühüm addım atmaqdan ibarətdir. Bugünkü elmi tədqiqat müəssisələrini gələcək nəsillərə düzgün formalaşmış elmi tədqiqat universiteti, elmi tədqiqat akademiyası kimi çatdırmaq lazımdır. Hamlet müəllim çox dəqiq danışdı və az da danışmadı. Dəqiq göründü ki, öz Xəzər Universitetinin varlığı ilə, onun qısa, amma ibrətamiz tarixi ilə yaşayır və o haqda saatlarla söhbət aparmağa hazırdır. Mən Hamlet müəllimi tam dərk edirəm, anlayıram. Xəzər Universiteti onun övladı kimidir, mən sizi təbrik edirəm, Hamlet müəllim!

Burada dinlədiyimiz və gördüyümüz vəziyyət, qazanılmış uğurlar bizim Milli Elmlər Akademiyamız üçün əldə etmək istədiyimiz, həyata keçirmək istədiyimiz arzulardan biridir. Nədir o arzu? Akademiyamız, bilirsiniz ki, 70 illiyini qeyd edir. İnşallah, payız aylarında yubiley mərasiminin dəqiq tarixi müəyyən olunacaq və 1945-ci ildə yaradılmış Akademiyamızın 70 illiyini bayram edəcəyik. 70 il ərzində Akademiya Azərbaycan elminə, həm də dünya elminə böyük töhfələr verib. Güman edirəm ki, hamınız Akademiyanın tarixini, təsis maddələrini yaxşı bilirsiniz, bu barədə müxtəlif kitab və digər mənbələrdə oxumusunuz və ya eşitmisiniz - müxtəlif yerlərdə, iclaslarda, elm və tədris ocaqlarında bu mövzuda söhbətlər edilmişdir. O vaxt 15 təsisçinin yaratdığı Akademiya bu il 70 illiyini qeyd etməyə hazırlaşır.

Azərbaycan elmi o 70 ilin təqribən 45 ilini Sovetlər rejiminin bir hissəsi olaraq SSRİ Elmlər Akademiyası formasında planlaşdırılmış, inkişaf etmiş, fəaliyyət göstərmişdir. Bu istiqamətdə çox görkəmli alimlər, böyük mütəxəssislər, mütəfəkkirlər əmələ gəlib və onlar da elmi məktəblər yaradıblar. O elmi məktəblərin bir qismi Akademiyada öz fəaliyyətini davam etdirməkdədir. Nə üçün mən deyirəm bir qismi? Çünki Sovetlər dağılanda çox şey dağıldı və bu, əlbəttə ki, Azərbaycandan yan keçmədi, o cümlədən Azərbaycan elmindən yan keçmədi, bu baxımdan elmimizə böyük zərbə dəydi, siz bunu bilirsiniz. O zərbə nə idi? 50 ilə yaxın müddətdə yaranmış əlaqələr, elmi ünsiyyətlər, məktəblər, o məktəblərlə bizim elmi məktəblərin şərikli fəaliyyəti sanki yoxa çıxdı, bunlar hamısı bir an içində dağıldı. Amma, buna baxmayaraq, bəzi elmi istiqamətləri

saxlamaq mümkün oldu. Akademiyada bir zaman oldu ki, professor ayda 30 dollar maaş alırdı, 90-cı illərin əvvəllərində Akademiyada belə bir vəziyyət yarandı. Amma, buna baxmayaraq elmi sevənlər, elm fədailəri heç bir yana getmədilər, elmə xidmətdə davam etdilər. Bu gün biz onlara minnətdarıq. Düzdür, onlar indi yaşlanmış, püxtələşmiş alimlərdir. Amma, biz onların xidmətlərindən səmərəli istifadə edib, indi Akademiyada islahatlar aparmağa başlamışıq, bu istiqamətdə fəaliyyət uğurla davam edir, öz niyyətimizi həyata keçirmək fikrindəyik.

İslahatlar çərçivəsində daha bir vacib istiqamət var, o da, dediyim kimi, elmlə təhsilin inteqrasiyasıdır. Hətta Sovetlər vaxtından öncə - böyük Pyotrun yaratdığı Rusiya İmperator Akademiyasında təhsillə müəyyən əlaqələr bir qədər vardı, Sovetlər vaxtı bu əlaqələr zəifləmiş, demək olar ki, tam pozulmuşdu, çox cüzi hallarda saat hesabı dərs demək və sair. Cüzi münasibətlət mövcud idi. Ali təhsil müəssisələrində isə elmə bir o qədər də üstünlük verilmirdi.

Amma hal-hazırda Xəzər Universitetinin misalı göstərdi ki, elmlə təhsil bir yerdədir, elmi-tədqiqata üstünlük verilir. Mən bunu belə bilmirdim. Hamlet müəllim, mən sizi və sizin kollektivi təbrik edirəm. Siz, doğrudan da, təqribən 24 il ərzində Azərbaycanda yüksək səviyyəli təhsil və elm mərkəzi yaratmısınız, arzu edilən bir müəssisə qurmusunuz. Biz bu yaxında Akademiyanın vitse-prezidenti İbrahim müəllimlə, Yer haqqında Elmlər Bölməsinin akademik- katibi Fəxrəddin müəllimlə birlikdə İsraildə, Yerusəlim Universitetində qonaq olduq. Onların təhsil və elm sistemi ilə tanış olduq. Orada özümüz üçün bir daha müəyyən etdik ki, bizim Akademiyanın, Azərbaycan elminin gələcəyi siz gördüyünüz növ işlərlə bağlıdır. Rusiyada, demək olar ki, Elmlər Akademiyası dağılıb, orda bir federal agentlik yaradılıb, guya Akademiyaya rəhbərlik edir. Yəni Akademiya ciddi müstəqil bir qurum kimi təsəvvür olunmur - həm alimlər tərəfindən, həm təhsil sistemi tərəfindən. Bunun əsas səbəbi ondadır ki, mən belə hesab edirəm, Akademiyada təhsil çox az olub, cüzi olub və nəticədə Akademiya təhsildən ayrılıb, həm özü zərər çəkib, həm də təhsil. Məqsəd də bundan ibarətdir ki, alim mütləq auditoriyada olmalıdır, tələbə mütləq laboratoriyada olmalıdır. Bu iki böyük ünsiyyəti, elmlə təhsilin vəhdətini, birgə inkişafını yaratmaq bu saat Akademiyada ən ümdə məsələlərdən biridir. Biz bu addımları atdıq, bu il, Hamlet müəllim yəqin bilir, Akademiyada magistraturaya qəbul elan etdik. Cənab Prezidentə təşəkkür etmək istəyirəm ki, bu istiqamətdə bizə dəstək oldu, razılıq verdi və biz bir pilot layihə kimi 7 ixtisas üzrə 20 magistr qəbul etdik. Güman edirəm ki, bu ilk addımdır və gələcəkdə məqsədimiz akademik təhsil müəssisəsi yaratmaqdır.



Bizim Akademiyanın nizamnaməsi var və bu nizamnaməyə uyğun olaraq elmi müəssisələrin öz nizamnamələri, əsasnamələri, qayda-qanunları var. Bu nizamnamələrdə dəyişiklik edilməlidir ki, biz elmi müəssisə kimi yox, elm-təhsil müəssisəsi kimi fəaliyyət göstərə bilək. Baxın, bügünkü Akademiyamızın məqsədini dedim, amma siz bunu bünövrədən başlamısınız. Düzgün bir bina bünövrədən, fundamentdən düz qoyulmalı, düz başlamalıdır ki, o, düz qurulsun, düz inkişaf etsin. Budur mənim sizin yaratdığınız Xəzər Universitetinə münasibətim və Hamlet müəllimin dedikləri ilə tamamilə şərikəm. Və biz ümumi şərikli konfranslar təşkil edib, şərikli qrantlar ala bilərik. Hətta şərikli ekspedisiyalar təşkil edə bilərik, Akademiya ilə Xəzər Universitetinin birlikdə ekoloji, geoloji ekspedisiyalar yaratması mümkündür. Bunlar həm sizin tələbələr üçün, həm akademiya üçün çox vacibdir. Bax, belə bir qarşılıqlı münasibətlərin qurulması çox əhəmiyyətli bir elmi mühit, yaxşı təhsil şəraiti yarada bilər.

Akademiyamız böyükdür. Akademiyada 40-a yaxın elmi müəssisə var. İki kəlmə də Akademiyamızın strukturu haqqında. Akademiyanın 9 bölməsi var, 2 bölmə Bakıdan kənarda - biri Naxçıvanda, biri də Gəncədədir. Onlar hər ikisi müstəqil akademik bölmələr kimi fəaliyyət göstərir. Fizika - riyaziyyat və texniki elmlər bölməsi, akademik-katib Nazim Məmmədov buradadır, Kimya elmləri bölməsi, akademik-katib Dilqəm Tağıyev buradadır, Biologiya və tibb elmləri bölməmizin akademik - katibi Əhliman Əmiraslanov, Aqrar elmlər bölməmizin akademik - katibi Qərib Məmmədov, Akademiyanın vitse prezidentləri Tofiq Nağıyev, İbrahim Quliyev, İsa Həbibbəyli - onların hərəsi Akademiyanın bir istiqamətini koordinasiya etməklə prezidentə kömək edirlər. Belə bir ənənəvi qurum kimi Akademiyamız 70 il ərzində fəaliyyət göstərib. Akademiyanın ilk prezidenti Mirəsədulla Mirqasımov, onun vitse prezidentləri Səməd Vurğun Vəkilov və Mustafa Topçubaşov olmuşlar. Bu struktur bu günə qədər davam edir, fəaliyyətdədir. Amma bu gün həm qloballaşan dünya, həm də elmin inkişafı elə sürətlə gedir ki, biz bu strukturla onun ardınca çata bilmirik. Bu gün həyatın ritmi, dünya elminin inkişaf ritminin dinamikası tələb edir ki, biz kadr hazırlığına xüsusi fikir verək. Bayaq Hamlet müəllim düzgün qeyd etdi - əsasən yalnız gənc elmi işçi, alim elmi yeniliklərin ön cəbhəsində ola bilir. Əlbəttə, gənc alim püxtələşmiş alim yanında daha da yaxşı olur, onun qarşısında daha geniş üfüqlər açılır. Gənc alimin istəyi, stimulu, imkanları olduqca böyükdür, çox istedadlı isə bu imkanlar, bəlkə də, hədsiz - hüdudsuzdur.

Sizinlə görüşməyimə çox şadam və düşünürəm ki, bu ilk addımdır. Mən bu gün Avropa Oyunları ilə bağlı müsahibə verdim. Dövlətimizin, maşallah, uğurları hərtərəflidir - həm iqtisadi, həm mədəni, həm idman istiqamətində uğurlar göz qabağındadır. Azərbaycan bu gün idman mədəniyyəti nümayiş etdirir, beynəlxalq bir idman mərkəzi oldu ki, Avropa ona bu oyunları həvalə etdi. Bu, cənab Prezidentin sarsılmaz ardıcıl siyasətinin nəticəsidir.

Hamlet müəllim, bu gün biz sizinlə yeni addım atdıq, güman edirəm ki, addımımız uğurlu olacaq. Sağ olun!





*Görüşdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış etdi.*

**Akademik İsa Həbibbəylinin çıxışı**

Hörmətli Akif müəllim və Hamlet müəllim, əziz müəllimlər və tələbələr!

Bu gün, mənim nəzərimcə, sözün hər mənasında, həm mənim həyatımda, həm Akademiyanın həyatında, düşünürəm ki, həm də Xəzər Universitetinin həyatında çox əlamətdar günlərdən biridir, hətta bəlkə bir neçə nöqtədən baxsaq, tarixi günlərdən biridir. Çünki Xəzər Universiteti inkişaf etmiş yüksək səviyyəli bir universitet kimi dünyanın çox müxtəlif ölkələrindəki ali məktəblərlə çoxdandır ki, əlaqələr qurub, bu, artıq adi bir hala çevrilib. Amma ölkə daxilində AMEA kimi sözün əsl mənasında elmin dayağı olan bir qurum ilə bir özəl universitetin, nə qədər inkişaf etmiş olsa da, müqavilə imzalaması və bu görüşü keçirməsi çox böyük tarixdir. Buna özəl universitet tərəfindən baxanda da onun dövlət elmi təşkilatı olan, dövlətin baş elmi mərkəzi olan Akademiya ilə əlaqə qurması yeni və tarixi bir addımdır. Akademiya tərəfdən baxsaq, ölkədə bu dəqiqə çox universitetlər var. Onların içərisində yüksək inkişaf etmiş bir özəl universitetlə müqavilə bağlamaq özü də bir tarixdir. Tarix olmaqdan başqa son dərəcə maraqlı bir sintezdir. Burada Akif müəllim elm və tədrisin inteqrasiyasına toxundu - maliyyə məsələlərindən tutmuş idarəetmə məsələlərinə qədər. Burada iki fundamental təcrübə - böyük bir dövlət elm təcrübəsi, bir yeni özəl, sərbəst və dünyəvi təcrübə bu gün birgə əməkdaşlıq üçün ilk addımlarını atır. Məncə, bunun hələ ki, analoqu yoxdur. Başlanan bu böyük işin ölkədə ilk olduğunu görürük. İnanıram ki, bunun nəticələri də elə qeyri - standart olacaq, ölkə elminə, ölkə təhsilinə tamamilə yeni modellər təqdim edə biləcək. Buna görə mən Akademiyanın prezidenti hörmətli akademik Akif Əlizadənin və Xəzər Universitetinin rektoru hörmətli professor Hamlet İsaxanlının bu gün imzaladıqları mühüm sənədi, Elmlər Akademiyası ilə Xəzər Universiteti arasında müqaviləni yüksək qiymətləndirirəm. Bu yeni addımı əhəmiyyətli addım hesab edirəm. Uğurlar olsun!

Akademiya haqqında Akif müəllimin dediklərini tamamlamaq üçün bəzi sözləri deməyi vacib bilirəm. Akademiyanın özündə islahatlar davam edir. Akademiyada gedən islahatlar ölkəmizin Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatların məntiqinə, onun inkişaf dinamikasına uyğun olaraq davam edir. Həm də dünyada gedən prosesləri mütləq nəzərə alır. Ölkədə əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və ölkəmizin prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən islahatlar özünü Akademiyada da göstərir, Akademiyanın islahatlarında əks olunur. Atılan addımların nüvəsində azərbaycançılıq siyasəti, Azərbaycan dövlətçiliyi siyasəti durur, milli - mənəvi dəyərlərin elmi şəkildə meydana qoyulması istiqaməti əsas götürülür. Bu baxımdan Azərbaycan elmini ölkə miqyasında inkişaf etdirmək üçün ilk

növbədə mövcud strukturlardan tam imtina etmədən, onun yaxşı cəhətlərini qorumaq şərti ilə ölkənin ümumi inkişaf istiqamətində yeniləşdirmə siyasəti aparmaq lazımdır. Məsələn, özümün təmsil olunduğum ictimai və humanitar elmlərdən misal gətirim. Biz SSRİ vaxtı məlum bir hegemon dövlətin siyasətini həyata keçirən bir ölkə olmuşuq, icra edən ölkə olmuşuq. Bizim özümüz siyasət diktə edən bir ölkə deyildik, müstəqil olmadığımız üçün buna hüququmuz yox idi. Amma, 20 ildən çoxdur ki, artıq Azərbaycan müstəqil ölkədir və Ulu Öndər Heydər Əliyevdən başlayan böyük ənənəni yaradıcılıqla davam etdirən ölkəmizin prezidenti cənab İlham Əliyev həqiqətən təkcə formaca yox, məzmunca da böyük iradəsi ilə müstəqil bir dövləti irəli aparır. Deməli, müstəqil dövlətin öz daxili və xarici siyasəti formalaşır. Amma ölkəmizdə elm indiyə qədər siyasətə tətbiq olunma səviyyəsinə yüksəlməyib. Siyasət həmişə siyasi təbliğat, bir çox hallarda populizm, bir çox hallarda idarəçiliklə qarışmış bir məhfum kimi təqdim olunur. Amma indi biz mütləq siyasətin elmini və yaxud siyasətin elmi əsaslarını öyrənib model yaratmaqla, ona məzmun verməklə ölkəmizə kömək etməliyik. O ehtiyacdan çıxış etsək, dövlətin dünya miqyasında, beynəlxalq aləmdə gördüyü işlərin siyasətini, elmi əsaslarını qurmaq zərurəti müstəqil dövlətin onurğa sütununa, prioritetlərinə kömək etmək, elmi dəstək vermək deməkdir. Ona görə də, Akademiyanın prezindenti Akif Əlizadənin təşəbbüsü ilə, ölkə prezidentinin razılığı ilə yaradılan Dünya Siyasəti İnstitutu dünyanın Azərbaycana yönələn siyasətinin elmi mahiyyətini, müsbət - mənfi tərəflərini meydana qoymalıdır. Azərbaycanın dünyaya hesablanmış siyasətinin elmi əsaslarını təqdim etməlidir. Bu, əlbəttə, başlanğıc olsa da, müstəqil dövlətin maraqlarına uyğun Akademiyanın inkişaf etdirilməsi istiqamətində çox böyük yardımdır.

Xəzər Universitetində də gördüm, neçə illər bundan öncə yaradılmış regionşünaslıq ixtisasının çox ali məktəblərdə ənənəsi vardır. Amma, etiraf edək ki, regionşünaslığın qabağında Amerika, Avropa sözləri yazırıq və mümkün qədər bir istiqamətdə regionşünaslığı öyrənməyə çalışırıq, öz regionumuzu isə, ümumiyyətlə, bütöv halda öyrənə bilmirik. Məsələn, Azərbaycan Qafqaz regionundadır, Xəzər hövzəsi regionundadır,



Türkiyə və Qafqaz Azərbaycan regionundadır. Bunun bugünədək ayrı-ayrı detallarını öyrənmişik, istiqamətlərini tədris edirik, amma bütöv halda, sistem halda bu regionun içində mövqeyimiz, problemimiz, ağrımız, dostumuz, əsən küləklər, onlara qarşı müqavimətimiz və sairəni öyrənməmişik. Akademiyanın prezidentinin təşəbbüsü ilə Akademiyada Qafqazşünaslıq İnstitutu yarandı və bu artıq Qafqazda Azərbaycanın mövqeyi kimi məsələlərin öyrənilməsi və ümumiləşdirilməsini, özəl bölmədən tutmuş dövlət müəssisələrinə qədər, uşaq bağçasından tutmuş elmi qurumlara qədər, ali məktəblərə qədər müxtəlif praqmatik məsələləri meydana gətirir.

Bu cür məsələlər digər elmi sahələrdə də baş verir. Dünən Akademiyanın rəyasət iclasında Biofizika Smart Materiallar İnsitutu yaradıldı. Bu, Azərbaycanda çox yeni sahədir. Ayrı-ayrı şöbələr, alimlər var, lakin bu sahədə pərakəndə olmaqla dünya elminə çıxmaq, töhfələr vermək mümkün deyildir. Amma dünən Akademiya bu sahədə mühüm qərar qəbul etdi. Bundan əvvəl də bizim Akademiyamızda Molekulyar Biologiya və Biotexnologiya İnstitutu yaradıldı. Bu proseslər davam edir, mərkəzlər yaradılır, kök hüceyrələrinin mərkəzini yaratmaq üçün Akademiyada iş gedir.

Hamlet müəllim mədəniyyətşünaslığa böyük əhəmiyyət verir və bu çox mühüm məsələdir. Xəzər Universiteti, bildiyimiz kimi, "Dünya" məktəbi yaratmaqla təkcə orta məktəb mənasında yox, ümumiyyətlə təhsilə, mədəniyyətə töhfə verir. "Dünya" məktəbi, məncə, Xəzər Universitetinin özünü ifadə edir. Xəzər Universiteti Azərbaycanda Qərblə sadəcə əlaqə quran deyil, rəqabətə qoşulan, onlarla rəqabətdə iştirak edən bir universitet səviyyəsinə gəlib çatmışdır. Bu, həqiqətən də, Azərbaycan təhsil sistemində tamamilə yeni səviyyədir, yeni mərhələdir.

Xəzər Universiteti dünya çapında bir elm-təhsil-mədəniyyət ocağıdır. Bu, düşünürəm ki, jurnalından tutmuş müəlliminə qədər, auditoriyasına qədər öz əksini tapır, tələbəsi də o cür düşünür. Bu ali məktəbdə təhsilə və elmə yüksək səviyyədə, dünya miqyasında yanaşma vardır. Mən deyim ki, burada Xəzər Universitetinin rektoru Hamlet İsaxanlının mükəmməl riyaziyyatçı olması ilə yanaşı, həm də tanınmış istedadlı, çox qabiliyyətli ədəbiyyat adamı olması bu sintezlərin, kompleks formaların yaranmasına öz töhfəsini verir. Gördüm - rəqs, muğam, vokal, xalçaçılıq, rəsm, zərgərlik və sair ayrıca, seçmə fənlər kimi tədris olunur. Bu təkcə ona görə deyil ki, uşaqların mədəniyyəti, dünyagörüşü olsun və yaxud universitet mədəniyyət mərkəzi olsun. İngilis dilli bir ali məktəbdə, Qərb dəyərlərinin istər-istəməz yer tutduğu, inkişaf etdiyi bir ali məktəbdə bunlar azərbaycançılığa xidmət edir, azərbaycançılıq məfkurəsinin tarazlığının qorunmasına yox, hətta balansda ağır tərəfə çevrilməsinə xidmət edir. Bu çox vacibdir, müstəqil ölkəmiz üçün çox mühüm məsələlərdən biridir ki, bu universitet təkcə Qərb yönümlü ingilis dilli ali məktəb olmağı ilə qürur duymur, eyni zamanda azərbaycançılıq mərkəzi olmağı ilə səciyyələnir.

Azərbaycan Arxeologiyası, Humanitar və Sosial Elmlər, Təbiət elmləri və texnologiya jurnalları burada çap olunur. Jurnallarınızın hamısının adında Xəzər var. Hansı dildə çap olunmağından asılı olmayaraq, hansı ölkənin böyük cədvəllərində yer tutmağından asılı olmayaraq Xəzər orada varsa, Azərbaycan da var. Xəzər adını daşımaq elə böyük Azərbaycanın adını daşımaq deməkdir, mütləq orada azərbaycançılıq var. Sizin "Elm və Sənət Məclisi" artıq dünyada məşhurdur, uzaq və yaxın ölkələrdə tanınır, qəbul olunur və əks - səda doğurur.

Akademiyada bu il Muğamşünaslıq Mərkəzi açıldı. Muğam sənəti ilə Azərbaycanda Musiqi Akademiyası, Mədəniyyət və İncəsənət Universiteti, Filarmoniya, Mədəniyyət və Turizim Nazirliyi və sair məşğul olurlar. Azərbaycanda muğam ifaçılıq mərkəzi var, ölkə Prezidenti yaradıb onu. Amma muğam elm mərkəzi heç birində yoxdur. İlk dəfədir ki, Akademiyanın və Azərbaycanın tarixində muğam elmi mərkəzi yaradıldı.

Bu ölkə dəyərləri ilə dünyəvi dəyərlərin həm elmdə, həm də tədrisdə balansını qorumaqda biz eyni yoldayıq, eyni prosesləri yaşayırıq. Bu iki qurumun inteqrasiyası zamanı hər ikimiz irəli getməklə bir-birimizə kömək edə bilərik. Deyim ki, sizə Akademiyanın ən böyük köməyi onun elmi potensialıdır: tarixçilər, sənətşünaslar, ədəbiyyatşünaslar, dilşünaslar... Böyük ənənəsi var Akademiyanın. Heç Akademiyaya sizi dəvət etmədən və biz də bura gəlmədən bü gün Akademiyanın informasiya texnologiyası imkan verir ki, onlayn şəkildə biz mühazirələr oxuyaq və tələbələr qulaq assınlar. İnformasiya Texnologiyaları İnstitutunda, Ədəbiyyat İnstitutunda, başqa

institutlarda uyğun kameralar quraşdırılmış salonlarımız var. Siz də, biz də bu sahədə əməkdaşlıq etmişik. Biz alimlərimizn dərslərini həvəslə, könüllü şəkildə, bu müqavilənin işığında sizə onlayn şəklində təqdim edə bilərik. Azərbaycanşünaslığın bütün bölmələri üzrə hər həftə sizin tələbələrinizə dərs vermək məsələsini təşkil edə bilərik.

Akademiya inkişaf edib, demək olar ki, hər gün konfransdayıq, çatdıra bilmirik. Sizin də beynəlxalq miqyaslı konfranslarınız var. Bizim üçün və sizlər üçün bu adi reallıqdır. Birgə konfranslar keçirməklə əlaqəmiz güclənə bilər. Mən düşünürəm ki, elm və tədrisin inteqrasiyası baxımından bu gün böyük addım atdıq. Akademiyada ali məktəblərin kafedralarının filialları qurulur. Amma, bu gün elə bil ki, Akademiyada Xəzər Universiteti quruldu və Xəzər Universitetində Akademiya quruldu. Bu vəhdət, bu yeni və maraqlı süjet ölkəmizdə elmin və təhsilin inteqrasiyasının yeni mərhələsidir, yeni səviyyəsidir, elmə də, təhsilə də öz töhfəsini verəcəkdir. Mən Nizami Gəncəvidən bir neçə misra deməklə fikrimi tamamlamaq istəyirəm:

*Çox iti zehinlər yatan oldular,*
*Axırda saxsı qab satan oldular.*

Yəni ki, tənbəllik bizim ictimai bəlamızdır. Biz özümüz və tələbələr iti zehinli xalqıq, Azərbaycan xalqı iti zehinli xalqdır. Amma, mən istəyirəm ki, tənbəllik bizdən uzaq olsun, biz vaxtımızdan səmərəli istifadə edək.

*Rütbələr içində seçilir biri,*
*Hamıdan ucadır alimin yeri.*
*Elm və biliklə - başqa cür heç kəs*
*heç kəsə üstünlük eyləyə bilməz.*

Böyük elmdə, bilikdə daha böyük üstünlük qazanmaq üçün böyük addım atdıq. Uğurlar arzu edirəm, təbrik edirəm!

*Görüşü H. İsaxanlı yekunlaşdırdı.*

**Professor Hamlet İsaxanlının yekun sözü**

İsa müəllim Naxçıvanda rektor olanda məni oraya dəvət etdi, getdim. Mən ilk dəfə idi ki, Naxçıvana gedirdim. Əvvəlcə kampusu gəzdik, gördüm ki, böyük əmək çəkib və əməyi bar verib. Hər tərəf çiçəklər, güllər idi, torpağın içində toza bata-bata gəzdik. Sonra salona girdik. Salonda sözü mənə verdilər. Mən belə başladım: "mənə ayıb olsun, mən ilk dəfədi Naxçıvana gəlirəm". İndi deyirəm: mənə ayıb olsun ki, Milli Elmlər Akademiyamız ilə görüş təşəbbüsünü əvvəlcədən göstərməmişəm. Çox gözəl oldu. Mən düşünürəm ki, Akademiya ilə Universitet arasında bir əməkdaşlıq modelini ortaya qoyduq. Birlikdə işləmək niyyətimizi, arzumuzu ortaya qoyduq.

Çox təşəkkür edirəm!

*Tədbirdən sonra qonaqların şərəfinə ziyafət verildi.*

*AMEA ilə Xəzər Universiteti arasında Anlaşma Memorandumunun imzalanması ölkə mediasında geniş işıqlandırılmışdır. AzTV, İctimai TV, AZƏRTAC, "Azərbaycan", "İki sahil" qəzetləri və s. KİV-lər bu barədə xəbər vermişlər.*

# ANAS AND KHAZAR UNİVERSİTY SİGN MOU

On May 21, the Presidium of the Azerbaijan Republic National Academy of Sciences led by the ANAS President, Academic Akif Alizada, visited Khazar University to sign a Memorandum of Understanding with the university. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, greeted the guests and noted the significance of the event. Isaxan Isaxanli, Vice President for Admissions and Student Affairs, made a presentation giving detailed information about the university, including its campuses; academic schools and departments; centers, institutes and laboratories; bachelor's master's and PhD programs; scholarly journals and magazines published by the university press; faculty; and the university's first-place rating in Azerbaijan in reputable university rankings (e.g., Webometrics and Quacquarelli Symonds).

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made a detailed presentation about the history of the university, the vision behind founding it, and its international partnerships with around 300 universities in various areas (student exchanges, visiting instructor programs, and joint conferences/symposiums). He mentioned that integrating education with science has been one of the priorities of the university from the beginning, and he was confident that this goal would be met on a new scope thanks to the partnership with ANAS.

Then a memorandum of understanding between Khazar University and ANAS was signed by Academic Akif Alizada, President of ANAS, and Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. The MOU covers activities such as joint research, preparation of textbooks, usage of research results in the educational process, recruitment of well-known scholars to the educational sphere, holding joint conferences and symposiums on themes related to cutting-edge knowledge, organization of internships in reputable academic centers around the world for young scholars and instructors, and other events.

After the MOU was signed, Academic Akif Alizada, President of ANAS, made a presentation in which he said that the event gave him new information about Khazar and that this type of partnership marked the beginning of a new chapter in ANAS history. He stated that Khazar, as the first private university in Azerbaijan, holds a special place among the higher education institutions of the nation and the world. The academic, emphasizing the critical importance of the integration of education and scholarship for development in the modern day, spoke about the importance of this partnership between ANAS and Khazar University as well as the challenges remaining for the future.

Academic Isa Habibbeyli, Vice President of ANAS, also made a speech, stating that the signing of this agreement between ANAS and Khazar was a first in Azerbaijani history. He noted his hoped that this agreement would be very fruitful for the integration of education and science in Azerbaijan.

After the event, dinner was served in honor of the guests.

*The event was also broadly covered by the media. News about the event was published by AzTV, Ictimai (Public) TV, AzerTAC, Azerbaijan Newspaper, Iki Sahil (Two Shores) Newspaper, and other media agencies.*

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş

"AZƏRBAYCANŞUNASLIĞIN AKTUAL PROBLEMLƏRİ"

VI Beynəlxalq elmi konfrans

## ƏMƏKDAŞIMIZ BEYNƏLXALQ ELMİ KONFRANSDA

Mayın 5-dən 7-dək Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin assistenti Günel İsmayılova Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Azərbaycanşunaslığın aktual problemləri" VI Beynəlxalq elmi konfransında iştirak etdi.

Konfransda AMEA-dan olan alimlər, eləcə də Azərbaycanın bir sıra universitetlərindən və xaricdən gələn elm xadimləri iştirak edirdilər. Konfransı giriş sözü ilə açan Bakı Slavyan Universitetinin rektoru professor Asif Hacıyev və Azərbaycan Respublikasının Millətlərarası Multikulturalizm və Dini Məsələlər üzrə dövlət müşaviri akademik Kamal Abdulla konfransın aktuallığından danışdılar və konfrans iştirakçılarına uğurlar dilədilər. Bakı Slavyan Universitetinin doktorantı Günel İsmayılova "Azərbaycan ədəbi dilinin formalaşması" mövzusunda məruzə ilə çıxış etdi.

Konfransın sonunda iştirakçılara sertifikat təqdim olundu.

## FACULTY MEMBER AT INTERNATIONAL CONFERENCE

On May 5-7, Gunel Ismayilova, Azerbaijani Language and Literature Department assistant, attended the "Current Issues in Azerbaijani Studies" VI International Scientific Conference dedicated to the 92nd birthday of National Leader Heydar Aliyev and organized by Baku International Multicultural Center, the Knowledge Fund of the President of the Azerbaijan Republic and Baku Slavic University. Participants in the conference included representatives of the Azerbaijan National Academy of Sciences and several universities as well as foreign scholars. The opening speeches were made by Professor Asif Hajiyev, Rector of Baku Slavic University, and Academic Kamal Abdulla, Azerbaijan Republic State Advisor on multiculturalism and religious issues.

Gunel Ismayilova, PhD student at Baku Slavic University, gave a presentation on "The formation of Azerbaijani literary language."

At the end of the conference, certificates were given to participants.

## "ÖLKƏNİN ALİ MƏKTƏBLƏRİNDƏ TƏRCÜMƏÇİLİK İXTİSASI TƏDRİSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ" MÖVZUSUNDA YIĞINCAQ

Mayın 7-də Azərbaycan Republikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin yığıncağı keçirildi. Yığıncaqda "Ölkənin ali təhsil ocaqlarında tərcüməçilik ixtisası tədrisinin təkmilləşdirilməsi" mövzusu müzakirə olundu.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da tədbirdə iştirak edirdi. O, tərcümə işinin mahiyyəti, çətinlikləri və perspektiləri haqqında danışdı.

ЭХО

## ECHO.AZ SAYTINDA VƏ "ЭХО" QƏZETİNDƏ HAMLET İSAXANLININ MÜSAHİBƏSİ

Mayın 16-da *www.echo.az* saytında və "Эхо" qəzetində S. Əliyeva və N. Əliyevin təhsildə islahat məsələlərinə həsr olunmuş "Оставить только самое нужное" ("Yalnız gərəklisini saxlamaq lazımdır") adlı məqaləsi dərc olunmuşdur. Məqaləni müəlliflər ölkə və xarici ekspertlərdən aldıqları müsahibələr əsasında hazırlamışlar.

Onlar Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdan da müsahibə almışlar. Müsahibədə H.İsaxanlı təhsildə aparılan islahatlara münasibətini bildirmiş, Xəzər Universitetindəki təhsil sistemi haqqında söhbət açmışdır.

Məqalə ilə bu linkdə tanış ola bilərsiniz:
*http://www.echo.az/article.php?aid=83811#Kalibri.*
(*Məqalə jurnalın 20-ci səhifəsində dərc olunur*).

Азербайджанские Известия

## ƏMƏKDAŞIMIZIN MƏQALƏSİ "АЗЕРБАЙДЖАНСКИЕ ИЗВЕСТИЯ" QƏZETİNDƏ

"Азербайджанские известия" qəzetinin 11 aprel 2015-ci il tarixli nömrəsində yeseninşünas tədqiqatçı, Xəzər Universsitetinin prorektoru İsaxan İsaxanlının «И волны Каспия, и балаханский май…» ("Xəzərin dalğaları və Balaxanı mayı") adlı iri həcmli məqaləsi çap olunmuşdur.

Dahi rus şairi Serqey Yeseninin anadan olmasının 120 və Bakıya ilk gəlişinin 95 illiyinə həsr olunmuş məqalədə müəllif şairin Bakıya səfərlərindən və yaradıcılığının həmin dövründən ətraflı bəhs edir.

Məqaləni bu linkdə oxuya bilərsiniz:
*http://www.azerizv.az/news/r-10-2.html*

## YESENİNİN XATİRƏSİNƏ DƏYƏRLİ TÖHFƏ

Xəzər Universitetinin nəşriyyatında böyük rus şairi Serqey Yeseninin "İran nəğmələri" kitabı nəfis şəkildə çap olunmuşdur. Kitabın tərtibçi və redaktoru - Xəzər Universitetinin prorektoru, Yeseninin həyat və yaradıcılığının Bakı dövrünü uzun illər ərzində tədqiq edən və bu mövzuda Azərbaycan və rus dillərində bir neçə iri həcmli kitabın müəllifi olan İsaxan İsaxanlıdır.

Kitaba onun"İran nəğmələri" və tərcüməsi ilə bağlı üç məqaləsi də daxil edilmişdir.

Kitab özünün orijinal tərtib üsulu ilə diqqəti cəlb edir.

Kitabda "İran nəğmələri"ndəki hər bir şeir rus dilində və Azərbaycan dilindəki bütün tərcümələri ardıcıllıqla verilmişdir ki, bu da Azərbaycanın kitab çapı tarixində ilk belə təcrübədir.

"İran nəğmələri" Xəzər Universitetinin müəllimi, rəssam Afaq Kərimovanın xüsusi olaraq bu kitab üçün hazırladığı illüstrasiyaları ilə çap olunmuşdur. Serqey Yeseninin anadan olmasının 120 illiyinə həsr olunmuş kitab şairin xatirəsinə dəyərli töhfədir.

SERQEY YESENİN



# ОСТАВИТЬ ТОЛЬКО САМОЕ НУЖНОЕ

ЭХО

**С. Алиева, Н. Алиев**

*По мнению отечественных экспертов, в системе высшего образования необходимо провести реформы, направленные на упразднение потерявших актуальность предметов в вузах.*

*Система образования, в том числе и высшего, досталась нам в наследство от Советского Союза. Конечно, она претерпевала какие-то изменения и сегодня - это уже не совсем советская модель образовательной системы, тем не менее, многие эксперты говорят о том, что она не отвечает требованиям современных реалий.*

*В частности, некоторые эксперты уверены, что в вузовской программе очень много лишних предметов, от которых необходимо избавляться.*

Как заявил в интервью echo.az **учредитель и ректор Университета Хазар Гамлет Исаханлы,** у нас в системе образования в том числе и высшего, реформы осуществляются постоянно.

"Во-первых, в отечественных вузах сократили количество часов обучения для студентов. Во времена того же СССР этих часов было гораздо больше, чем сейчас. Сегодня же количество часов лекций не должно превышать определенного лимита.

Во-вторых, естественно, сократилось и количество предметов, которые сегодня просто потеряли актуальность. Скажем, "История коммунистической партии" в наши дни мало кого интересует, а потому этот предмет давно исключили из вузовских программ.

Но сегодня появились и новые требования к специальностям и, соответственно, к специалистам, а потому определенные изменения в привычных уже предметах неизбежны.

Так, к примеру, специальность "Компьютерная инженерия" раньше и сегодня - две по сути разные специальности, с течением времени изменения тут неизбежны.

Вообще каждый вуз в соответствии со своим представлением о том, что нужно современным студентам, составляет свою программу обучения с перечнем всех предметов.

Данная программа согласовывается с Министерством образования, и на основании этой программы и осуществляется обучение студентов", - отметил Г.Исаханлы.

Что касается права выбора студентами специальностей, то, безусловно, основной выбор они делают на стадии поступления, но, по словам Г.Исаханлы, даже после поступления студент может выбирать.

"К примеру, у нас в вузе студент, поступивший на факультет "Политология" и в процессе обучения вдруг осознавший, что ему ближе и интереснее, скажем,- "Международные отношения", запросто может перевестись на этот факультет.

Для этого он пишет заявление, мы оповещаем об этом Министерство образования, и студент учится на новом факультете.

Что касается выбора предметов, то и тут студенту предоставляется полная свобода выбора. Студент может выбирать общеобразовательные предметы, например, иностранный язык, который ему больше приходится по душе.

У нас в Университете Хазар студенты могут выбирать предметы, знакомящие их с азербайджанской культурой.

Например, кому-то интереснее изучать классическую музыку, кому-то историю ковроткачества.

Если говорить о специальных предметах, то тут есть обязательные дисциплины, которые изучать придется для постижения азов профессии, но есть и те, которые можно выбрать, или предпочесть другие.

В Университете Хазар все это работает, и студенты действительно имеют свободу выбора, за другие отечественные вузы я отвечать не решусь, там может действовать иная система", - резюмировал Г.Исаханлы.

В свою очередь **заслуженный деятель науки Азербайджана, профессор Шахлар Аскеров** в интервью echo.az заявил, что если появляется какая-то новая специальность, то, соответственно, возникает необходимость в упразднении какой-то уже неактуальной специальности.

"Допустим, в последнее время очень много говорится о нанотехнологиях, и если мы начнем преподавать студентам подобные дисциплины, то придется менять, в первую очередь, учебный план.

Но нельзя не отметить, что изменения в учебном плане и так постоянно происходят, это неизбежный процесс. Допустим, если раньше электроника преподавалась в соответствии с требованиями того времени, то научно-технический прогресс неумолимо движется вперед, сегодня данная специальность имеет совершенно иную специфику.

Даже название кафедры поменялось с вакуумной электроники на микроэлектронику. Так и со специальностями, необходим анализ рынка труда, и уже исходя из него можно делать какие-то

выводы",-резюмировал Ш.Аскеров.

**Председатель Союза свободных преподавателей Азербайджана, эксперт сферы образования Малахат Муршудлу** в беседе с echo.az подчеркнула, что несмотря на очевидное наличие в сфере высшего образования Азербайджана так называемых лишних специальностей, упразднить их на сегодняшний день не представляется возможным.

"Все дело в том, что в системе высшего образования Азербайджана до сих пор не проведена реформа, а без нее проводить какие-то кардинальные изменения невозможно.

Кроме того, у нас не проводится исследование рынка труда, не ведутся социологические исследования в данном направлении, хотя для выявления наиболее перспективных и нужных профессий необходим подобный анализ.

К сожалению, многие сферы нашей жизни до сих пор несут на себе отпечаток советского прошлого, но в то же время на них накладываются правила жизни современного Запада. Это же касается и системы образования.

Именно поэтому уже давно назрела необходимость реформирования образовательной сферы. Без реформы переход на новый уровень будет невозможен.

Что касается упразднения некоторых специальностей, потерявших свою актуальность, то нужно учесть еще один момент. Эти специальности могут быть не нужны в столице и крупных городах, но в селах, деревнях, наоборот, в представителях подобных профессий может быть острая необходимость.

Поэтому я и говорила в самом начале нашей беседы о необходимости комплексного исследования рынка труда. На основании данного исследования можно будет делать конкретные выводы", - отметила М.Муршудлу.

Кстати, в Украине сокращение предметов в вузах идет полным ходом. Сокращение дисциплин снизит успеваемость и уровень знаний, говорят педагоги. Но реформу поддерживают.

В сентябре в украинских вузах в два раза сократят количество предметов для первокурсников с 15 до 8 в семестре, сообщили Корреспондент.net в пресс-службе Минобразования.

Сокращение предметов пройдет в рамках закона о высшем образовании, который приняли еще летом 2014 года.

При этом учащимся выделят больше времени на самостоятельное обучение. "При прежнем количестве дисциплин было невозможно охватить все досконально", - рассказали в ведомстве.

В свою очередь, педагоги считают, что сокращение предметов для первокурсников приведет к снижению успеваемости и уровня знаний студентов, так как предполагает больше самостоятельного обучения.

"Как показывает моя практика, очень мало студентов могут нормально самоорганизоваться и самостоятельно проработать тот материал, который обычно дают на лекциях и более детально разбирают на семинарах, рассказал **преподаватель Киевского университета им. Шевченко Игорь Петренко**. Здесь главное - личная мотивация студентов, а она пока очень низкая, хотя есть и те, кто не хуже усваивают материал и в таких условиях".

По его словам, подобную схему еще год назад ввели на четвертом и пятом курсах Киевского университета им.Шевченко - студентам уменьшили аудиторную нагрузку, обучение проходит четыре раза в неделю.

Кроме того, хотя все индивидуально, многим все же нужна коллективная работа, говорят педагоги. "Также важно сохранить контакт между преподавателем и студентом, особенно на младших курсах, говорит педагог **Георгий Ищенко**. В плане приучения студента как молодого специалиста к проявлению инициативы и самостоятельности новая форма работы очень полезна.

Кроме того, у нас есть студенты с сильным потенциалом самообразования, и масса заданий по всем предметам не дает им возможности нормально заниматься исследованиями, языками или чтением множества книг".

Преподаватели считают, что для успешного внедрения новшества нужно разработать гибкую модель, которая упростит обучение при обработке десятков разных источников, получаемых студентами на лекции.

"Нужно создать инфраструктуру для такого обучения - веб-платформу, на которой у каждого преподавателя будет личный кабинет с его курсами, - предложил Петренко. Здесь каждый студент сможет получать нужные материалы, литературу и методические рекомендации, чтобы находиться в логических рамках изучения курса".

В то же время педагоги согласны, что в семестре нужно сокращать менее значительные предметы. По их словам, на каждом курсе можно найти одну-две дисциплины, которые слишком узко специализированы или совсем не нужны.

«На первом курсе исторического факультета читают ряд предметов, которые нужно бы сократить или оптимизировать: экология, ОБЖ, деловой украинский язык, охрана труда.

К примеру, деловой украинский язык было бы лучше заменить на обычный, чтобы большинство студентов научились грамотно писать", отметил педагог **Владислав Володько**.

Еще одно из нововведений - выбор студентом двух предметов в семестре по своему усмотрению, помимо обязательных. По словам педагогов, количество таких дисциплин следовало бы даже увеличить до пяти.

В то же время некоторые педагоги считают, что на практике нововведения не будут работать, так как все сведется к формальности. При этом саму реформу образования одобряют.

**16.05.2015**

## KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES INDEXED BY WEB OF SCIENCE

*On May 15, 2015, Prof. Hamlet Isaxanli, Khazar University's founder and Chairman of the Board of Directors and Trustees as well as Editor-in-Chief of the Khazar Journal of Humanities and Social Sciences, received official notice that the Journal has been accepted to be indexed by Thomson Reuters' Web of Science. We present the letter from Thomson Reuters below for our readers.*

**Dr. Hamlet Isaxanli**
**Founder**
**Khazar University Press**

Dear Dr. Hamlet Isaxanli,

I am pleased to inform you that Khazar Journal of Humanities and Social Sciences has been selected for coverage in Thomson Reuters products and services. Beginning with V. 18 (1) 2015, this publication will be indexed and abstracted in:

♦ The New Edition of Web of Science (launching late 2015)

If possible, please mention in the first few pages of the journal that it is covered in these Thomson Reuters services.

*Thank you very much.*
*Sincerely,*
**Marian Hollingsworth**
**Director, Publisher Relations**

ISSN 2223-2613

Khazar Journal of Humanities and Social Sciences

Xəzər Humanitar və Sosial Elmləri Jurnalı

## XƏZƏR UNİVERSİTETİ TENDERİN QALİBİ OLDU

Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil sektorunun İnkişafı üzrə İkinci Layihə çərçivəsində "Dərsliklərin hazırlanması və qiymətləndirilməsi üzrə təlimlərin keçirilməsi" ilə bağlı təşkil etdiyi tenderin qalibinin adını açıqlamışdır.

Tenderdə qalib məsləhətçi Xəzər Universiteti olub.

Tenderin nəticəsinə uyğun olaraq, qalıb məsləhətçi ilə mayın 2-də müqavilə imzalanmışdır. Müqavilənin müddəti 2015-ci il dekabrın 30-da başa çatacaq.

## KHAZAR UNIVERSITY WINS TENDER

The winners of a tender for the project "Preparation of Textbooks and Training on Evaluation," which is part of the Second Project for Development run by the Education Sector of the Azerbaijan Republic Ministry of Education, were announced. The winner of the tender was Khazar University. In accordance with the tender, a contract was signed between the Ministry of Education and Khazar University. The contract is valid until December 30, 2015.

## "ELM ÜÇBUCAĞI" PROQRAMININ NÖVBƏTİ VERİLİŞİ

Mayın 17-də İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu. Veriliş " Zaman: psixoloji, fəlsəfi və dini baxışlar" mövzusuna həsr olunmuşdu.

Universitetin əməkdaşları da dinləyici qismində verilişdə iştirak edirdilər.



## TƏLƏBƏLƏRİMİZ HEYDƏR ƏLİYEV ZİRVƏSİNDƏ

Mayın 10-da Xəzər Univeristeti Tələbə Məclisinin nəzdində fəaliyyət göstərən Veloclubun rəhbəri – İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Kənan Atayev, həmin fakültənin tələbələri İbrahim Sadıqov və Namiq Məmmədzadə Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Heydər Əliyev zirvəsinə qalxıb, orada Xəzər Universitetinin bayrağını dalğalandırdılar.

## "XƏZƏR"Ə "KÖRPÜ" DİPLOMU

Mayın 6-da Alman-Azərbaycan Cəmiyyətinin fəaliyyətinin 25 illik yubileyi münasibətilə Kapelhaus Alman-Azərbaycan Mədəniyyət Birliyində tədbir keçirildi. Tədbirdə ictimaiyyət və mədəniyyət nümayəndələri, Almaniyada müxtəlif sahələrdə çalışan qonaqlar iştirak edirdilər. Çıxış edənlər iki ölkə arasında dostluq əlaqələrinin inkişafı və perspektivlərini vurğulayaraq, 25 il ərzində cəmiyyətin mədəni, elmi, tədris, idman və digər sahələrdə həyata keçirdiyi layihələr haqda məlumat verdilər.

25 il ərzində cəmiyyət tərəfindən mütəmadi təqdim olunan "Körpü" diplomu Alman-Azərbaycan dostluq əlaqələrində fərqlənən şəxslərə və təşkilatlara verildi. Xəzər Universiteti də bu mükafata layiq görüldü. 2002-ci ildə Xəzər Universitetində nəşr olunan "Kitabi-Dədəm Qorqud aşiqi" kitabı (redaktor: professor Hamlet İsaxanlı; tərtibçilər: dr. H.Achmed Schmiede, professor Süleyman Əliyarlı, dosent Roza Arazova) xüsusi vurğulandı.

Tədbir bayram konserti ilə sona çatdı.



DEUTSCH-ASERBAIDSCHANISCHE GESELLSCHAFT e.V.
ALMAN-AZƏRBAYCAN CƏMİYYƏTİ

Körpü - Brücke

DİPLOM

Almaniya-Azərbaycan dostluq ənənələrinin inkişafındakı xidmətlərinə görə

"Xəzər" Universiteti

wird anlässlich seiner grossen Verdienste bei der Entwicklung der Deutsch-Aserbaidschanischen Freundschaftsbeziehungen dieses Diplom verliehen.

## KHAZAR UNİVERSİTY WİNS "BRİDGE" AWARD

On May 6, an event was held at the Kapelhaus German-Azerbaijan Cultural Union to celebrate the 25th anniversary of the German-Azerbaijan Society. Participants in the event included public representatives and cultural figures as well as guests working in various fields in Germany. Speeches were made emphasizing the development prospects of the two countries' friendly relations as well as giving information about projects carried out over the past 25 years in the Society in the fields of culture, science, education, sports and other fields.

The "Bridge" award, which is regularly awarded by the Society to people and organizations who stand out in serving German-Azerbaijani relations, was awarded to Khazar University. The role of Khazar's "The Ashug of Kitabi-Dedem Qorqud" book (edited by Professor Hamlet Isaxanli; compiled by Dr. H.Achmed Schmiede, Professor Suleyman Aliyarli, and Associate Professor Roza Arazova) was especially emphasized.

The event ended with a festive concert.






# KOREYAYA AİD SEMİNAR

Mayın 13-də Xəzər Universiteti, SEBA (Seul-Bakı) təşkilatı və Koreya Fondunun birgə təşkilatçılığı ilə universitetdə Koreya ilə bağlı seminar keçirildi. Seminarda Koreyadan olan qonaqlarla yanaşı, universitet rəhbərliyi, Xəzər Universitetinin, Bakı Slayvan Universitetinin tələbələri və müəllimləri, SEBA nümayəndələri iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açılış nitqində Koreya-Azərbaycan əlaqələrinin əhəmiyyətini vurğuladı, qonaqlara Xəzər Universiteti haqqında ətraflı məlumat verdi. Sonra Seul Dövlət Universitetinin profesoru Çung Hongik Koreyada təhsil haqqında geniş çıxış etdi. Hankuk Universitetinin Türk-Azərbaycanşünaslıq departamentinin müəllimi professor Oh Çongjin Koreya-Azərbaycan siyasi əməkdaşlıq tarixindən danışdı.

Sonda qonaqlar iştirakçıların suallarını cavablandırdılar.

# SEMINAR ON KOREA

On May 13, a seminar on South Korea was held at Khazar University with the joint coordination of the university, SEBA (Seoul-Baku) organization, and Korea Foundation. Participants included Korean guests, university administrators, students and instructors of Khazar and Baku Slavic University, and SEBA representatives.

Professor Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, opened the event, emphasizing the importance of Korean-Azerbaijani relations and briefly introducing the university. He gave the floor to Professor Dr. Chung Hongik, professor emeritus at Seoul National University, who spoke about education in Korea. Then Prof. Dr. Oh Chongjin, Chair of the Department of Turkish-Azerbaijani Studies at Hankuk University, spoke about the history of diplomacy between Korea and Azerbaijan.

At the end of the event, the guests answered students' questions.

## "XƏZƏR"İN MÜƏLLİMLƏRİ POLŞADA BEYNƏLXALQ SEMİNARDA

2015-ci il mayın 6-dan 8-dək Xəzər Universitetinin Neft mühəndisliyi deparatamentinin müdiri dosent Qəşəm Zeynalov və İnşaat mühəndisliyi departamentinin müəllimi Tahir Çegini Polşanın Koszalin şəhərində Koszalin Texniki Universitetində "Enerji səmərəliliyi sahəsində tədrisin inkişaf etdirilməsi üçün təlim şəbəkəsinin yaradılması" adlı Tempus layihəsinin 6-ci idarəetmə iclasında və "Güc elektronikası" və "Hidrogen enerjisi" üzrə seminarlarda iştirak etmişlər.

Tədbirdə bərpa olunan enerji sahələri üzrə yeni kurikulumların hazırlanması, onların tədris prosesinə tətbiqi, laboratoriya avadanlıqlarının alınması, onların qeydiyyatı və həmçinin layihə üzrə müxtəlif hesabatların hazırlanmasi kimi məsələlər müzakirə olunmuşdur.

Layihənin əsas məqsədi enerji səmərəliliyinin artırılması, enerjiyə qənaət olunması və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində tədrisin yaxşılaşdırılması üçün partnyor ölkələr və Avropa İttifaqına üzv dövlətlərin ali təhsil müəssisələri arasında şəbəkəni genişləndirməkdir.

## KHAZAR INSTRUCTORS PARTICIPATE IN SEMINAR IN POLAND

On May 6-8, Associate Professor Gasham Zeynalov, Head of the Department of Petroleum Engineering, and Tahir Chegini, instructor of the Civil Engineering Department, participated in the 6th management meeting for the "Development of Training Network for Improving Education in Energy Saving (ENERGY)" TEMPUS project as well as seminars on "Power Electronics" and "Hydrogen Energy" at Koszalin Technical University in Koszalin, Poland.

At the event, discussions were held about developing new curriculum in the field of renewable energy, implementation of the curriculum in the educational process, purchase and registration of laboratory equipment, and preparation of various reports for the project. The main objective of the project is to enhance networking among higher education institutions across the Partner Countries and EU Member States in order to improve education in the field of energy efficiency enhancement, energy saving and use of renewable sources of energy.

## İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNDƏ TƏDBİR

Mayın 7-də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsində 1941-45-ci illər Böyük Vətən müharibəsinin 70 illiyinə, Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və həmçinin Hacı Səməd Kələntərlinin "Duyğular" kitabının təqdimatına həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Böyük Vətən müharibəsinin veteranları – Anna Atakişiyeva, Leonid Perevidski, Aleksandr Andropov, eləcə də, professor Məlahət Kələntərlı, Törəxanım Hüseynova, Məlahət Hətəmova və Göyərçin Mustafayeva iştirak edirdilər. Tədbirin başlanğıcında iştirakçılara müharibəyə aid qısa videoçarx göstərildi. Sonra fakültənin tələbələri Hacı Səməd Kələntərlinin "Duyğular" kitabından şeirlər söylədilər.

Sonda müharibə veteranları və Hacı Səməd Kələntərli tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürlərini bildirdilər.

## GƏNC ŞAİR VÜQAR RAHİ İLƏ GÖRÜŞ

Mayın 7-də Xəzər Universitetinin Elektronika, radiomühəndislik və telekommunikasiya departamentində gənc şair Vüqar Rahi ilə görüş keçirildi. Vüqar Rahi "Sən", "Mənə bir az ondan danış", "Mən qəribə biriyəm" və s. maraqlı şeirlərin müəllifidir.

Görüşdə müasir dövrdə elektron kütləvi informasiya məkanında, o cümlədən internetdə şeirlərin yayılması, animasiya, elektron ensikplopediya, səs keyfiyyəti, elektron nəşrlərə istinadlar, müəlliflik hüququnun qorunması və s. məsələlərə də toxunuldu.

# AKADEMİK ZİYA BÜNYADOVUN KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ






Mayın 14-də AMEA Milli Azərbaycan Tarixi Muzeyində görkəmli şərqşünas alim, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun ingilis dilində çap olunmuş "Xərəzmşahlar - Anuştəqinilər dövləti. 1097-1231" kitabının təqdimat mərasimi keçirildi. Tədbir Milli Azərbaycan Tarixi Muzeyi, AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu və Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi tərəfindən təşkil olunmuşdu.

Təqdimat mərasiminə tanınmış şərqşünas alimlər, tarixçilər, Azərbaycan Respublikasında akkreditə olunmuş səfirliklərin nümayəndələri dəvət olunmuşdular. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar şurasının sədri professor Hamlet İsaxanlı, Beynəlxalq əlaqələr üzrə prorektor Fərda Əsədov, Tarix və arxeologiya departamentinin müdiri dosent Roza Arazova, departamentin müəllimi Orxan Zamanov da iştirak edirdilər.

Akademik Ziya Bünyadovun fundamental tədqiqat əsərlərindən biri olan bu kitab YUNESKO-nun Beynəlxalq Mərkəzi Asiya Tədqiqatlar İnstitutu tərəfindən ingilis dilinə tərcümə olunub və çapa hazırlanmışdır. Kitab AMEA-nin müxbir üzvü Şahin Mustafayev və İngilis şərqşünası Tomos Velsfordun elmi redaktəsi ilə nəşr olunmuşdur.

Tədbirdən əvvəl qonaqlar Z.M.Bünyadovun həyat və fəaliyyətini əks etdirən, şəxsi sənədləri və elmi əsərlərindən ibarət stendlərə baxmışlar.

Mərasimi giriş sözü ilə muzeyin direktoru akademik Nailə Vəlixanlı açaraq, Ziya Bünyadovun görkəmli şəxsiyyət və şərqşünas alim kimi fəaliyyəti, şəxsi keyfiyyətləri barəsində ətraflı danışmış, təqdimatı keçirilən kitabın strukturu və mahiyyəti barəsində məlumat vermişdir. Sonra şərqşünas alimə həsr olunmuş " Akademik Ziya Bünyadovun missiyası" sənədli filmi nümayiş etdirilmişdir.

AMEA-nın vitse - prezidenti, akademik İsa Həbibbəyli öz çıxışında Şərq və türk - müsəlman xalqlarının tarixinin öyrənilməsində Azərbaycan elminin qazandığı nailiyyətləri qeyd etmiş, bu işdə akademik Ziya Bünyadovun zəhmətini xüsusi vurğulamışdır.

Tədbirdə çıxış edən Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva Ziya Bünyadovun şərqşünaslıq elmində yeri və rolundan danışaraq, qeyd etmişdir ki, Azərbaycan tarixini saxtalşdıranlara qarşı inadlı mübarizə aparmış Z.Bünyadovun elmi əsərləri tariximizin neçə-neçə qaranlıq səhifəsinin açılmasında mühüm rol oynamışdır.

AMEA-nın müxbir üzvü Şahin Mustafayev öz çıxışında kitabın tərcüməsi və çapını təşkil etmiş Beynəlxalq Mərkəzi Asiya Tədqiqatlar İnsitutunun fəaliyyəti, türk xalqlarının tədqiqinə İnsitutun töhfəsi barəsində məlumat vermiş, akademik Ziya Bünyadovun "Xərəzmşahlar-Anuştəqinilər dövləti. 1097-1231" adlı kitabının ingilis dilində çap olunmasının Azərbaycan elminin dünya ictimaiyyətinə tanıdılmasında mühüm əhəmiyyərtə malik olmasını xüsusi vurğulamışdır.

Özbəkistan Respublikasınının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Şerzod Fayziyev Ürgənc şəhərinin fəxri vətəndaşı olmuş Ziya Bünyadovun Azərbaycan - Özbəkistan dostluq münasibətlərində yeri və rolu, özbək alimləri ilə sıx əlaqələri barəsində çıxış etmişdir.

Şərqşünas alimi tanıyanlar onunla bağlı xatirələrini söyləmişlər.





# XALQ RƏSSAMI ALTAY HACIYEVLƏ GÖRÜŞ

Mayın 21-də Xəzər Universitetinin Mədəniyyət mərkəzində Xalq rəssamı Altay Hacıyevlə universitetin rəssamlıq fənni keçən tələbələrinin görüşü oldu. Görüşdə rəssamın miniatür və qrafika əsərlərindən ibarət sərgi, həmçinin tələbələrin əl işləri nümayiş etdirilirdi.

Görüşü Mədəniyyət mərkəzinin direktoru, rəssam Afaq Kərimova açaraq, A. Hacıyevin yaradıcılığı haqqında tələbələrə məlumat verdi.






Xalq rəssamı Arif Hüseynov A. Hacıyevlə birlikdə miniatür janrının inkişafı üçün göstərdikləri səylərdən söhbət açdı və ilk dəfə olaraq özü və A. Hacıyevin də iştirakı ilə beş rəssamın miniatür əsərlərindən ibarət sərginin açıldığını xatırlatdı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, rəssamlıq sənəti haqqında mülahizələrini bildirdi və universitetdə rəssamlıq fənninin də tədrisinə önəm verildiyini söylədi.

Sonra A. Hacıyev və H. İsaxanlı tələbələrə sertifikat təqdim etdilər.

Rəssam anadan olmasının 80 illiyi münasibətilə əsərlərindən ibarət nəfis şəkildə çap olunmuş kitab-albomu H. İsaxanlıya, Mədəniyyət mərkəzinə və universitetin Kitabxana-informasiya mərkəzinə hədiyyə etdi.

Sonda tədbir iştirakçılarına universitetin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə kiçik konsert proqramı təqdim olundu.





# İRAN KİNOSUNUN ULDUZLARI XƏZƏR UNİVERSİTETİNDƏ






Mayın 22-də Xəzər Universitetinin Mərmər salonunda İran İslam Respublikasının tanınmış aktrisaları Laleh və Sitareh Eskandari bacıları ilə universitet kollektivinin görüşü keçirildi. Görüşdə Azərbaycanın məşhur kino xadimləri də iştirak edirdilər.

Görüşü universitetin Fəlsəfə və insanşünaslıq departamentinin müdiri, fəlsəfə doktoru Mail Yaqublu açaraq, İran İslam Respublikasından gələn sənətkarlar haqqında məlumat verdi.













Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı salona toplaşanları salamlayaraq, sənət adamları ilə görüşün hər zaman bir bayram olduğunu vurğuladı. O, İran İslam Respublikasından və Azərbaycandan olan sənət adamlarının bir yerdə olmasını müsbət qiymətləndirdi.

Daha sonra Laleh və Sitareh Eskandari bacılarının həyat və yaradıcılığına həsr olunmuş film nümayiş etdirildi. Filmin nümayişinin ardınca Laleh və Sitareh bacıları növbə ilə kürsüyə çıxdılar. Onların hər ikisi Xəzər Universitetinə, şəxsən H.İsaxanlıya dəvət üçün dərin təşəkkürlərini bildirdilər və Azərbaycanı çox sevdiklərini söylədilər. Hər iki aktrisa onlara ünvanlanan çoxsaylı sualları cavablandırdılar.

Azərbaycanın xalq artistləri Rasim Balayev, Ramiz Həsənoğlu, Afaq Bəşirqızı, əməkdar artist Xalidə Quliyeva, Azərbaycan Professional Kino Gildiyasının Baş direktoru Şahidə Tacəddin və digərləri çıxış edərək, Azərbaycanla İran kinematoqrafçıları arasında əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsinin zəruriliyindən danışdılar.

İran İslam Respublikasının Bakıdakı Mədəniyyət Mərkəzinin direktoru İbrahim İbrahimi çıxış edərək, sənət adamlarını və salona toplaşanları səmimi salamladı. O, hər iki ölkənin sənət adamlarının birgə görüşünü yüksək qiymətləndirdi və bu görüşü təşkil edən Xəzər Universitetinin rəhbərliyinə təşəkkürünü bildirdi.

Sonda iranlı aktrisalara hədiyyələr təqdim edildi, xatirə şəkilləri çəkildi və qonaqların şərəfinə ziyafət verildi.








# IRANIAN ACTRESSES VISIT KHAZAR

On May 22, Laleh and Setareh Eskandari, sisters and famous actresses from the Iran Islamic Republic, visited Khazar University and held a meeting in the Marble Hall.

Dr. Mail Yagub, Head of the Department of Philosophy, opened the meeting and introduced the Iranian guests.

Then Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, greeted the audience and said that every meeting with artists is like a celebration at the university. He was glad for the gathering of Azerbaijani and Iranian professionals.

Then film clips covering the lives and creative work of Laleh and Setareh Eskandari were shown. The sisters took the floor one by one after the films. They each thanked Prof. Isaxanli for the invitation and said that they loved Azerbaijan very much. Each actress answered many questions posed by the audience.

Rasim Balayev, Ramiz Hasanoghlu, and Afaq Bashirgizi, People's Artists of the Azerbaijan Republic; Khalida Guliyeva, Meritorius Artist; Shadida Tajeddin, Director of the Azerbaijan Professional Film Guild; and others made speeches thanking Khazar University for the organization of the event and thanking the actresses for visiting. Ibrahim Ibrahimi, Director of the Iran Islamic Republic Cultural Center in Baku, also made a speech in which he sincerely greeted the artists and the audience. He highly evaluated the meeting of the two countries' artists and thanked the administration of Khazar, particularly Prof. Isaxanli, for organizing the event.

Then a group photo was taken and dinner was served in honor of the guests.






# MƏKTƏBLİLƏR UNİVERSİTETİN QONAĞI OLDULAR







Aprelin 30-da Azərbaycan dili və ədəbiyyat departamentinin təşəbbüsü ilə Nizami rayonundakı 328 nömrəli məktəblə Xəzər Universitetinin əməkdaşlığı çərçivəsində həmin məktəbin yuxarı sinif şagirdlərinin universitetlə tanış olması məqsədilə tədbir keçirildi. Məktəblilər Kitabxana - informasiya mərkəzi, Mədəniyyət mərkəzi, dərs otaqları və laboratoriyalarla tanış olduqdan sonra universitetin təqdimatı ilə bağlı videoçarxı izlədilər.



Xəzər Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Hassan Niknafs, Təhsil fakültəsinin dekan müavini Zərifə Əliyeva və Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri Vurğun Əyyubun iştirak etdiyi tədbirdə şagirdlərə universitet haqqında ətraflı məlumat çatdırıldı, onların hər birinə hədiyyələr təqdim edildi.

Tədbirin sonunda məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Elnaz Eyvazlı təşkilatçılara və universitet rəhbərliyinə göstərdikləri diqqət və qonaqpərvərliyə görə təşəkkürünü bildirdi.



## NEFT MÜHƏNDİSLİYİ DEPARTAMENTİ MÜDİRİNİN SCHLUMBERGER ŞİRKƏTİNDƏ GÖRÜŞÜ

Aprelin 30-da Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalov *"Schlumberger"* şirkətində şirkətin meneceri Dr. Tatyana Topalova və proqram təminatı üzrə mütəxəssis Dr. Samirə Bağırova ilə görüş keçirdi. Görüşdə "Schlumberger" şirkəti tərəfindən Xəzər Universitetinə hədiyyə ediləcək *"Petrel Geology and Geophysics", "Petrel Reservoir Engineering", "Techlog", "ECLİPSE"* və *"OFM"* kimi xüsusi kompüter proqram təminatlarının neft mühəndisliyinin həm bakalavriatura, həm də magistratura proqramlarında tədris olunan əsas ixtisas fənlərində tətbiqi məsələlərinin detalları müzakirə edildi. Bununla əlaqədar, Qəşəm Zeynalov Xəzər Universitetinin Neft mühəndisliyi proqramlarında tədris olunan ixtisas fənləri haqqında geniş məlumat verdi.

Müzakirələrdən sonra qeyd edilən proqram təminatlarının tədris və tədqiqat prosesində tətbiqinə dair xüsusu metodik proqramın hazırlanması qərara alındı.

"Schlumberger" şirkətinin mütəxəssislərinin də bu metodik proqramın hazırlanmasında yaxından iştirak edəcəyi nəzərdə tutulur. Həmçinin, həmin proqram təminatlarından tədris və tədqiqat prosesində daha effektiv istifadə etmək məqsədilə gələcəkdə "Schlumberger" şirkəti tərəfindən bu istiqamətdə seriya seminarların keçirilməsi qərara alındı.

## HEAD OF THE DEPARTMENT OF PETROLEUM ENGINEERING ATTENDS MEETING AT SCHLUMBERGER

On April 30, 2015, Associate Professor Gasham Zeynalov, Head of the Department of Petroleum Engineering, visited the Schlumberger company and met with Dr. Tatyana Topalova, company director, and software specialist Dr. Samira Baghirova. They discussed specific details of several software programs that Schlumberger is donating to Khazar University for use in its major's classes in bachelor and master-level Petroleum Engineering programs, including Petrel Geology and Geophysics, Petrel Reservoir Engineering, Techlog, ECLIPSE and OFM. In addition, Gasham Zeynalov spoke about the major's classes offered within the Petroleum Engineering programs at Khazar.

After the discussion, a decision was made to prepare guidelines about the use of the above programs in the classroom. Representatives from Schlumberger are planning to work closely with Khazar in the preparation of the guidelines. In addition, a series of seminars will be held in the future at Khazar so that Schlumberger representatives can help the university use the programs as effectively as possible.

## "ABŞ-DA TƏHSİL" SİLSİLƏSİNDƏN NÖVBƏTİ TƏQDİMAT

Mayın 1-də Beynəlxalq əlaqələr ofisi və Amerika Təhsil-Məsləhət Mərkəzi "ABŞ-da təhsil" silsiləsindən növbəti təqdimatı təşkil etdi. Təqdimat Xəzər Universitetinin "Neftçilər" kampusunda keçirildi.

Təqdimat zamanı ABŞ-da təhsil məsləhətçisi Leyla Həmidova tələbələrə niyyət məktubu və esselərin yazılması haqqında praktik məlumat verdi. Təqdimat sual-cavab sessiyası ilə yekunlaşdı.

Amerika Təhsil-Məsləhət Mərkəzi ABŞ Dövlət Departamenti tərəfindən dəstəklənən və akkreditə olunmuş ABŞ ali təhsil ocaqları haqqında dəqiq, dolğun və son məlumatları verən 400-ə yaxın tələbə məsləhət mərkəzləri şəbəkəsidir.

## WRITING WORKSHOP: THIRD SESSION BY WDICATION UAS

On May 1, the International Affairs Office, in collaboration with EducationUSA, organized another presentation in a series of presentations about studying in the USA. This presentation, in the form of a writing workshop, was held on the Neftchilar Campus of Khazar University.

The writing workshop provided students with practical information on writing motivation letters, personal statements, and essays. The workshop ended with a question and answer session.

EducationUSA is a U.S. Department of State network of over 400 international student advising centers providing accurate, comprehensive, and current information about accredited postsecondary institutions in the United States.





# KARYERA SƏRGİSİ

DəmirBank

Risk Strategies Company
Professional Practices Group

Level UP
Educational Development Center

KASPİ EC

bakcell

AZERSUN

Azercell

AzerCredit

TuranBank
...Biz*imlə etibarlıdır*

Academy

StudyGroup

Fw

Rabitəbank







Mayın 1-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə universitetin "Neftçilər" kampusunda Karyera sərgisi keçirildi.

Sərgidə Azersun Holding, Level Up Educational Development Center, Dəmirbank, Bakcell, NBCO Vision Fund AzerCredit LLC, Azercell Telecom, Paşa İnşaat, R.I.S.K Company, Turan Bank, FireWorks, Az Next, USE Study Group, Kaspi Education Company, Prosperium MMC, Rabitəbank, F-Group Academy şirkətləri iştirak edirdi.

Sərgidə təcrübə proqramları, könüllü iş, qısa və uzun müddətli iş imkanları təqdim olundu. Karyera sərgisində məzunlar və tələbələr elə oradaca ərizə formasını doldurdular və öz CV-lərni təqdim etdilər.










On May 1st, a career fair was held at Khazar University with the coordination of the Career Center. The fair was held in the courtyard of the Neftchilar campus.

Representatives from the following companies participated in the event: Azersun Holding, Level Up Educational Development Center, Dəmir Bank, Bakcell, NBCO Vision Fund AzerCredit LLC, Azercell Telecom, Paşa İnşaat, R.I.S.K Company, Turan Bank, FireWorks, Az Next, USE Study Group, Kaspi Education Company, Prosperium MMC, Rabitebank, and F-Group Academy.

The fair took place from 11:00 to 14:00. Students collected information about internship programs, volunteer opportunities, and short-term and long-term job openings. Students and alumni participating in the event had the opportunity to fill out job applications and submit their CVs directly to the representatives.

# CAREER FAIR





# TƏLƏBƏLƏRİMİZ ARXEOLOJİ QAZINTIDA

Mayın 3-də Xəzər Universiteti Təhsil fakültəsinin tarix və coğrafiya müəllimliyi ixtisasının III kurs tələbələri Tarix və arxeologiya departamentinin və "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin təşkilatçılığı ilə Ağsu şəhərində arxeoloji qazıntıda oldular. Əvvəlcə 1918-ci il Mart soyqırımında Bakının köməyinə gəlib şəhid olmuş 1130 türk əsgərinin xatirəsi yad edildi. Sonra tələbələr "Miras" İctimai Birliyinin təşkil etdiyi ağacəkmə kampaniyasına qoşuldular

Daha sonra tələbələr arxeoloji qazıntı ilə tanış oldular. Burada şərti olaraq, "III qazıntı sahəsi" adlandırılan ərazidə misgərlik, dəmirçilik, boyakarlıq və sümükişləmə sənəti ilə məşğul olan ustalara məxsus bir neçə sənətkarlıq emalatxanası aşkar edilmişdir ki, oradan çox nadir daş və metal qəliblər, sikkə zərbi məqsədilə doğranaraq hazırlanmış çoxsaylı mis lövhələr, Avropa şəhərlərində, o cümlədən, Londonda istehsal olunmuş şüşə və çini qab nümunələri tapılmışdır. Azərbaycan ərazisində ilk dəfə olaraq, "Lahıc" zərbi olan sikkələr də məhz Ağsuda tapılmışdır.

Burada hələ də arxeoloji qazıntı davam edir. Miras İctimai Birliyinin rəhbəri Fariz Xəlilli, Ağsu arxeoloji ekspedisiyasının rəisi, tarix elmləri doktoru Qafar Cəbiyev bu haqda tələbələrə geniş məlumat verdilər.





# STUDENT TRIP TO AGSU

On May 3, third-year students majoring in History and Geography Education participated in an archeological dig in the city of Agsu with the coordination of the Department of History and Geography and Miras Public Union to Support the Study of Cultural Heritage. First, they commemorated the 1130 Turkish soldiers who lost their lives when they came to the aid of Baku during the genocide in March 1918. Then they participated in a tree-planting ceremony organized by Miras Public Union to Support the Study of Cultural Heritage.

Later, the students were familiarized with the archeological site which is temporarily named "3rd excavation area." Findings at this site include workshops for coppersmiths, blacksmiths, painters, and those who craft with bones. These rooms included very rare stone and metal molds, many copper plates that had been cut in order to pound them into coins, and glass and china dishes that had been manufactured in London and other cities of Europe. For the first time in Azerbaijan, coins stamped with "Lahij" were found here in Agsu, where archeological work is still underway. Fariz Khalili, head of the Miras Public Union, and Dr. Gafar Jabiyev, chief of the Agsu archeological expedition, gave the students detailed information about the site.






## DOKTORANTIMIZIN MƏQALƏSİ FİNLANDİYADA ÇAP OLUNMUŞDUR

Xəzər Universitetinin doktorantura tələbəsi Marta Laurinin "Xalq mahnılarına əsasən Azərbaycan toy mərasimləri haqqında" adlı məqaləsi Finlandiyanın Juminkeko nəşriyyatında çap olunmuş "***Song and Emergent Poetics***" ("Mahnı və yeni poeziya") adlı kitaba daxil edilmişdir. Həmin kitab 2013-cü il noyabrın 21-24-də Finlandiyanın Kuhmo şəhərində Runosong Akademiyası, Tampere Universiteti, Sibelius Akademiyası və Helsinki Universitetinin birgə təşkilatçılığı ilə "Mahnı və poeziya: ifa olunan şifahı ənənələr" mövzusunda keçirilmiş beynəlxalq elmi konfrans materiallarının toplusudur.

Marta Lauri konfransdakı çıxışı əsasında məqaləsini təqdim etməklə yanaşı, sazda Azərbaycan xalq mahnısı da ifa etmişdi.

## PHD STUDENT'S ARTICLE PUBLISHED IN FINLAND

